RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

100

№ 258 (9425) 26 NOYABR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Regionun dayanıqlı inkişaf platforması

## SPECA-nın Bakı Zirvə görüşündə qəbul edilmiş Yol Xəritəsi daha böyük uğurlara hədəflənib

SPECA-ya üzv dövlətlər müstəqildirlər, müstəqil xarici, daxili, iqtisadi siyasət aparırlar. SPECA həftəsi də onların məhz həmin zəmindən çıxış edərək bir-birilə əlaqələrini getdikcə möhkəmləndirmək istiqamətində irəliyə doğru daha bir yeni addım oldu. Bu, SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Prezident İlham Əliyevlə görüşlərindəki söhbətlərin məzmunundan da aydın göründü. Məsələn, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevlə görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi məmnuniyyətlə qeyd olundu. Qazaxıstan neftinin Azərbaycan ərazisindən daşınması və ölkəmizin nəqliyyat imkanlarından istifadə edilməsi, bütövlükdə nəqliyyat-logistika imkanlarının və Trans-Xəzər nəqliyyat dəhlizinin inkişaf etdirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Həmçinin "Rəqəmsal İpək yolu" layihəsinin və Xəzər dənizinin dibi ilə xəttin çəkilməsi məsələsinin əhəmiyyəti və burada ölkələrimizin işbirliyi məmnuniyyətlə qeyd edildi. Eləcə də Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında Orta dəhliz üzrə multimodal əməkdaşlığın qurulması və bu xüsusda ayrıca şirkətin yaradılması həmin istiqamətdə nəqliyyat-logistika imkanlarının inkişaf etdirilməsi baxımından müsbət irəliləyiş kimi vurğulandı. Energetika sahəsində Azərbaycan-Qazaxıstan-Özbəkistan üçtərəfli əməkdaşlığı, Xəzərin dibi ilə elektrik xəttinin çəkilməsi və bunun gələcəkdə Avropa istiqamətində ixracı qeyd olundu.

Prezident İlham Əliyev Azərbaycanın hazırda Bakı-Tbilisi-Qars dəmir yolu ilə yanaşı, ölkəmizin cənub regionları istiqamətində İran ərazisindən keçməklə Naxçıvana və Türkiyə tərəfindən Qars-İğdır dəmir yolu xəttinin qurulması ilə yeni bir alternativ nəqliyyat dəhlizi formalaşdırmasının ötürücülük qabiliyyətinin və nəqliyyat imkanlarının artırılmasına töhfə verəcəyini diqqətə çatdırdı.

→ 3

## "ABŞ-ni rahatsız edən Azərbaycanın artan gücü və nüfuzudur"

"Xüsusi qeyd etmək lazımdır ki, burada uduzan tərəf Ermənistandır. Çünki bu ölkə Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər qazanaraq torpaqlarını işğaldan azad etməsi ilə yanaşı, həm də Ermənistan üçün də tarixi fürsət yaratdığını başa düşmür. İrəvan başa düşməlidir ki, onlar üçün fəaliyyət azadlığı yaranıb. Belə olan halda yaxşı olardı ki, Ermənistan bu tarixi fürsəti dəyərləndirsin", - deyə müsahibimiz qeyd edib.

Sevil Mikayılova söyləyib ki, həmçinin Qərb və ABŞ Cənubi Qafqaza sülh mühitini gətirən Azərbaycana minnətdar olmalı, qərəzli mövqe nümayiş etdirmək əvəzinə münasibətləri dərinləşdirməlidirlər: "Lakin tarixin bütün dövrlərində olduğu kimi, bu gün də hegemon dövlətlər digərlərinin güclənməsini və müstəqil siyasət yürütməsini həzm edə bilmir, onları cəzalandırmaq üçün hər cür yola əl atırlar. Qərb və ABŞ-nin hazırkı mövqeyi də budur. Onları rahatsız edən başlıca amil Azərbaycanın sürətlə artan gücü və nüfuzudur".

→ 4

## Azərbaycan-Bosniya və Herseqovina münasibətləri xoş ənənələrə malikdir

### Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri zati-aliləri cənab Jelko Komşiçə

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan ilə Bosniya və Herseqovina arasında dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir. İnanıram ki, ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə genişləndirilməsi yolunda birgə səylərimiz bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Bosniya və Herseqovina xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2023-cü il*

## "SPECA-nın Zirvə görüşü Prezident İlham Əliyevin təşəbbüsüdür"

Bakıda keçirilən SPECA-nın Zirvə görüşünün mühüm hadisə olduğunu deyən deputat Kamran Bayramov qeyd edib ki, SPECA-nın Zirvə görüşü Prezident İlham Əliyevin təşəbbüsüdür və bu təşəbbüsün irəli sürülməsi Avrasiya qitəsində yeni, daha əlverişli, daha ümidli geoiqtisadi konyunkturanın formalaşmasına xidmət edir: "Təsadüfi deyil ki, Zirvə görüşündən bir qədər əvvəl Prezident İlham Əliyev Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə vahid geoiqtisadi və geosiyasi formatın formalaşdırması barədə mühüm fikir bildirib".

→ 3

## Müharibə küləyi bu dəfə Qərbdən əsir

O da vurğulanası vacib məqamdır ki, Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) 2023-cü il 17 noyabr tarixli qərarı ilə Ermənistanın Azərbaycana qarşı əsas iddialarını rədd etmişdir. Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiqləyən BƏM bu qərarı ilə ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində təmin etdiyi milli maraqlarını qəbul etdiyini bildirmişdir.

Lakin sadalanan bütün bu reallıqlara rəğmən, Qərb ölkələri Azərbaycanı "etnik təmizləmə"də günahlandırır, ölkəmizə qarşı qərəzli bəyanatlar verir, qətnamələr qəbul edir, bir sözlə, sülhdən başqa nəyə desən xidmət edən məkrli fəaliyyət göstərirlər.

→ 4

## "ABŞ Azərbaycan əleyhinə ədalətsiz mövqe sərgiləməklə öz nüfuzuna zərbə vurur"

Azərbaycan parlamentində də ABŞ-nin "Ermənistana dəstək aktı" ilə bağlı bəyanat qəbul edilib: "İşçi komissiya yaradıldı və parlamentin mövqeyi elan edildi. ABŞ-nin bu fondakı fəaliyyəti, onların hansı təsirdə olması və nəyə görə belə fəaliyyət göstərmələri açıq-aydın dünyaya bəyan edildi. Azərbaycan ABŞ ilə olan münasibətlərində həmişə rasional siyasət həyata keçirib. Azərbaycanın xarici siyasətində ABŞ aparıcı və fəal dövlətlərdən biri olub. Həm ABŞ-nin yaratdığı koalisiya vaxtında, həm də ondan sonrakı proseslərdə Azərbaycan beynəlxalq humanitar dəyərlərə sadiq qalaraq, bütün siyasi proseslərdə real mövqeyi olan bir dövlət olub və Vaşinqton zaman-zaman bunu səsləndirsə də, hazırkı dövrdə erməni lobbisinin təsiri altında olan siyasətçilərin girovuna çevrilib".

ABŞ ona lazım olmayan, heç bir dividend gətirməyən, hətta siyasi anlamda nüfuzuna xələl gətirən belə bəyanatlar verməklə özünü yalnız çətin vəziyyətə salmış olur. "Azərbaycan qələbəsi ilə yalnız beynəlxalq hüququn prinsiplərini bərpa edib və öz ərazisində yaşayan, orada doğulan erməniləri də Qarabağdan getməyə deyil, əksinə, qalmağa təşviq edərək bunun üçün reinteqrasiya proqramı elan edib. Ermənilər öz xoşları ilə çıxıb gediblərsə, onlar beynəlxalq hüquqla qaçqın və ya məcburi köçkün hesab olunmurlar. ABŞ-nin bütün bunlardan sonra ədalətsiz aktlar qəbul etməsi yolverilməzdir".

→ 4

## Siyasi korluq

### Qərb aydınlıqda həqiqəti niyə görmür?

Qərbin əsl siması da bundan sonra üzə çıxdı. Dünənə qədər aparılan danışıqlarda sülh görüntüsü yaradan Qərb ölkələrinin maskaları üzlərindən düşdü və bir-birinə qoşulub ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirməyə başladılar.

Başda Fransa olmaqla bir çox Qərb ölkəsinin 44 günlük müharibədə və sonrakı dövrdə ölkəmizə qarşı ikili standartlara yol verməsi cəmiyyətimizdə haqlı olaraq qəti etirazla qarşılandı. Qərbin ölkəmizə qarşı qərəzli münasibəti ilk dəfə deyildi. Biz bunu əvvəllər çox görmüşdük. Həmin dövlətlər hələ sülh danışıqları prosesində həmişə Ermənistanı dəstəkləmişdi. Belə ölkələrdən isə yaxşı heç nə gözləmək olmazdı. Bu gün də Qərbin ölkəmizə qarşı qarayaxmaları səngimək bilmir. Yalanlar, şər-böhtanlar bir-birinin ucuna düyülüb, qeyri-müəyyən istiqamətdə getməyindədir.

→ 4

## Kəlbəcərdə yenidən qurulan 6 SES istismara verilib



Hazırda Kəlbəcər rayonunda "Azərenerji" tərəfindən 4 yerdə kiçik su-elektrik stansiyasının tikintisi aparılır. "Aşağı Vəng", "Yuxarı Vəng", "Nadirxanlı" və "Zar" adlanacaq kiçik su-elektrik stansiyalarının 2024-cü ildə istismara verilməsi planlaşdırılıb.

→ 6

## "Azərbaycanın SPECA-da aparıcı rola malik olması təsadüfi deyil"

Çünki Çindən Avropaya gedən yollar Orta və Mərkəzi Asiya ilə bərabər, həm də əsas dəhliz kimi Azərbaycandan keçir. Bu mənada bizim balanslı siyasət həyata keçirməyimiz mühüm əhəmiyyət kəsb edir. Bu proqramda xüsusi rolumuzun olması Prezident İlham Əliyevin apardığı uğurlu xarici və daxili siyasət nəticəsində mümkün olub. BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı olan SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşündəki çıxışlardan da aydın oldu ki, bu dövlətlərin Azərbaycana münasibəti dostyanadır, onlar Azərbaycanı siyasi dialoq ölkəsi kimi qəbul edir, iqtisadi islahatların aparıldığı və ciddi nəticə verdiyi bir dövlət kimi görürlər. Bu gün Azərbaycan həm də dünyada enerji təhlükəsizliyinə mühüm töhfə verən vacib dövlətlərdən biri hesab edilir. Ona görə də ölkəmizin SPECA-da aparıcı rola malik olması təsadüfi deyil.

→ 3

# Əli ƏHMƏDOV: "Fəaliyyətin bütün sahələrində peşəkarlıq nəticənin əldə olunmasının önəmli məqamlarından biridir"

## "ASAN xidmət" "Peşəkar 100 il" idarəçilik marafonunu reallaşdırır

Noyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ASAN İnnovativ İnkişaf Mərkəzi tərəfindən reallaşdırılan "Peşəkar 100 il" idarəçilik marafonunun açılış mərasimi keçirilib.



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş layihənin məqsədi gənc menecerləri Ulu Öndərin zəngin idarəçilik təcrübəsi ilə tanış etməklə onların kadr potensialının formalaşmasına dəstək olmaqdır.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü Həsən Həsənov və digər şəxslər iştirak ediblər.

Öncə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qonaqlar müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin milli dövlətçilik tariximizdəki zəngin siyasi irsindən və idarəçilik təcrübəsindən söz açıblar.

Baş nazirin müavini Əli Əhmədov Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Peşəkar 100 il" İdarəçilik Marafonunun açılış mərasimində deyib: "Ulu Öndər Heydər Əliyevin bir insanda önəm verdiyi keyfiyyətlərdən biri də peşəkarlıq idi. Ümumiyyətlə, dövlət idarəçiliyinin ən mühüm cəhətlərindən biri bu idarəçilik sisteminə cəlb olunan insanların peşəkarlığının təmin olunmasıdır. Fəaliyyətin bütün sahələrində peşəkarlıq nəticənin əldə olunmasının önəmli məqamlarından biridir. Təbiidir ki, dövlət idarələrində çalışanların peşəkarlığı birincisi, dövlətin öz qarşısına qoyduğu məqsədlərə çatmasının ən uğurlu yollarından biridir. İkincisi isə, insanların dövlətdən gözlədiklərinə qovuşmasının ən vacib şərtlərindən biri sayıla bilər. Bu mənada hesab edirəm ki, Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirlər silsiləsində belə bir peşəkar idarəetmə tədbirinin təşkil olunması və təlimlərin keçirilməsi həm Azərbaycan dövlətində çalışan insanların peşəkarlığının artırılmasına xidmət göstərir, həm də bu istiqamətdə bir çağırış kimi qiymətləndirilə bilər".

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli isə "Ümummilli Lider Heydər Əliyev bu gün ASAN idarəetməsini görmüş olsa idi, özü də çox məmnun olardı. Bugünkü şəffaf ASAN idarəetmə modeli Heydər Əliyevin hər zaman nail olmaq istədiyi və görmək istədiyi bir idarəetmə modelidir".

Diqqətə çatdırılıb ki, məhz Ulu Öndərin məqsədyönlü və müasir idarəçilik modeli Azərbaycan xalqının milli rifahının daha da yaxşılaşmasına və dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə hədəflənib.

Mərasimdə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və peşəkar idarəçilik yoluna həsr olunmuş, eyni zamanda ASAN İnnovativ İnkişaf Mərkəzinin fəaliyyətinə dair videoçarxlar nümayiş etdirilib, təqdimat keçirilib.

Ardınca "İdarəetmədə yeni çağırışlar" mövzusunda panel müzakirələr reallaşdırılıb. Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi"nin direktoru Vüsal Rüstəmovun moderatorluğu ilə baş tutan müzakirələrin spikerləri "MilliKart" MMC-nin İdarə Heyətinin sədri Söhrab Fərhadlı, "Azəricard" MMC-nin baş direktoru Fərid Quliyev, "SİNAM" MMC-nin prezidenti Elçin Əliyev və "Rabitəbank" ASC-nin baş direktoru Ziya Nuriyev olublar.

İki ay boyunca davam edəcək və 100 nəfəri əhatə edəcək "Peşəkar 100 il" idarəçilik marafonunda iştirakçılara müxtəlif istiqamətlərdə idarəçilik təlimləri və ustad dərsləri təşkil olunacaq.

Marafonun sponsorları "Rabitəbank" ASC, CHOCO ART, tərəfdaşlar "ASAN Könüllüləri" təşkilatı, "Başkənt" restoran və şirniyyat evi, "Crea Time", "Final çay", media tərəfdaşı ASAN radiodur.

# Adil ƏLİYEV: "Bu gün Kəlbəcərə yeni nəfəs gəlir, insanların doğma yurda qayıtmaq arzusu reallaşır"

"Dövlət başçısının bu ilin yayında imzaladığı sərəncama əsasən, noyabrın 25-i uzun illər düşmən işğalında qalmış Kəlbəcər rayonunun azad edildiyi gün kimi xüsusi qeyd edilir. 1990-cı illərin əvvəllərində azərbaycanlılara qarşı kütləvi cinayətlər törədən Ermənistanın atdığı addımlar təəssüf ki, Kəlbəcər rayonundan da yan keçmədi. Qədim türk yurdu və Azərbaycanın ayrılmaz hissəsi olan Kəlbəcər 1993-cü ildə Ermənistan tərəfindən işğal olundu. 1993-cü il aprelin 2-də rayonun işğalı zamanı 511 nəfər dinc həmvətənlimiz qəddarcasına öldürüldü, 321 nəfər isə əsir götürüldü".



AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclis Sədrinin müavini Adil Əliyev söyləyib.

A.Əliyev qeyd edib ki, Kəlbəcərin Ermənistan tərəfindən işğalı ilə 50 mindən çox Azərbaycan vətəndaşı 30 il ərzində məcburi köçkün həyatı yaşamağa məcbur olub, məhz bu, erməni vandalizminin iç üzüdür. Kəlbəcər rayonundan olan məcburi köçkünlər əzizlərini itirməklə bərabər, uzun illər doğma Vətənin həsrətini çəkiblər. Bu məhrumiyyətlərlə yanaşı, məhz beynəlxalq ictimaiyyətin baş verənlərə səssiz qalması, reaksiya verməməsi ikili standartların əyani nəticəsi idi. Kəlbəcərin Ermənistan tərəfindən işğalı faktını təsdiqləyən, Ermənistan hərbi qulluqçularının işğal altındakı ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi 4 qətnamədən biri - 822 saylı qətnamə qəbul olunub. Lakin bu qətnamələr 27 il ərzində icra olunmadı və kağız üzərində qaldı. İcrası məcburi xarakter daşıyan qətnamələrin yerinə yetirilməməsi Ermənistanın beynəlxalq hüquqa və beynəlxalq ictimaiyyətə verdiyi "dəyər"in təzahürü idi. Məhz kəlbəcərlilər məruz qaldıqları ikili standartlara görə uzun illər doğma yurdlarına qovuşa bilmədilər.

2020-ci il sentyabrın 27-də başlanmış genişmiqyaslı hərbi əməliyyat Azərbaycan Ordusunun 44 gün davam edən Zəfər yürüşü ilə tamamlandı, qəhrəmanlarımız bizə tarixi Qələbə bəxş etdilər. Rəşadətli Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanının göstərişlərinə uyğun olaraq hərbi qulluqçularımız ilk günlərdən etibarən həm də Kəlbəcər istiqamətində hücum əməliyyatına başladılar. Aparılan ardıcıl uğurlu əməliyyatlar nəticəsində bu istiqamətdə yüksəkliklər düşmən işğalından azad olundu. Eləcə də hərbi qulluqçularımız Basarkeçər-Kəlbəcər yolunu nəzarətdə saxlamaqla düşmənin Ermənistanla əlaqəsini kəsərək bu yoldan istifadənin qarşısını aldılar. Azərbaycan Silahlı Qüvvələrinin apardığı uğurlu əməliyyatlar nəticəsində tarixi Qələbə qazandıq və Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Üçtərəfli Bəyanat imzalanarkən Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biri də Kəlbəcər rayonunun təhvil verilməsi idi. Nəticədə noyabrın 25-də düşmən Kəlbəcər rayonunu birdəfəlik tərk etdi. Kəlbəcər rayonundan çıxanlar öz barbarlıqlarını, işğalçı, dağıdıcı mahiyyətlərini bir daha dünyaya nümayiş etdirdilər. Rayondan çıxarkən evlərini, məktəblərini və digər əmlaklarını yandırmaqla bərabər, meşələri də məhv etdilər.

### Kəlbəcər rayonunda quruculuq işləri yüksək sürətlə davam edir

Dövlət başçısının göstərişi ilə bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan abadlıq və quruculuq işləri çərçivəsində Kəlbəcərdə də genişmiqyaslı işlər həyata keçirilir. Prezident və Birinci vitse-prezident mütəmadi olaraq həmin ərazilərə səfərlər edərək görülən işlərlə yerindəcə tanış olur, yaşayış məntəqələrinin, xəstəxanaların və məktəblərin təməlqoyma mərasimlərində iştirak edirlər.

Bu sahədə görülən işlər keçmiş məcburi köçkünlərin yurdlarına dönmələrinin təmin olunması məqsədilə aparılır. Quruculuq işləri ilə yanaşı, növbəti mərhələdə kəlbəcərlilərin öz yurdlarına dönmələri də planlaşdırılır. Hazırda rayonda elektrik enerjisi istehsal edən müəssisələr, bütün infrastruktur yenidən qurulur, təsdiqlənmiş Baş plana uyğun olaraq sakinlər üçün evlər tikilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə başlamış Böyük qayıdış prosesi çərçivəsində artıq Talış kəndinə, Füzuliyə, Laçına, Zəngilana və ayrı-ayrı kəndlərə qayıdış gerçəkləşir və bu proses uğurla davam edir. İşğaldan azad olunmuş ərazilərə qayıdan həmvətənlilərimizin rahat yaşaması üçün evlər tikilir, müasir infrastruktur yaradılır, nəticədə uzun illər yurd həsrəti çəkmiş vətəndaşlarımız geri qayıdırlar. Məhz görülən bu işlər nəticəsində Qarabağa və Şərqi Zəngəzura yeni nəfəs gəlir, insanlar doğma yurdlarındadırlar. Onların məşğulluq və digər məsələləri dövlətimiz üçün prioritetdir, habelə qarşıdakı müddətdə kəlbəcərlilər də növbəli şəkildə öz yurdlarına qayıdacaqlar.

"Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda görülən işlərlə bərabər, regionda sülhün təmin olunması istiqamətində bütün vacib addımları atır. Regionda sülhün bərqərar olunması məqsədilə bütün imkanlar səfərbər edilir. Biz uzunmüddətli sülh arzusundayıq. Ümid edirik ki, Ermənistan da uzun illər törətdiyi qırğınlardan sonra işğalçılıq siyasətindən əl çəkəcək və sülhə öz töhfəsini verəcək", - deyə A.Əliyev vurğulayıb.

# Daxili işlər naziri xidmətə qəbulla bağlı sıra baxışı keçirib

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.



Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 132 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 15 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*"Azərbaycan"*

# Gənclər Milli Məclisdə olublar

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə və gənclərlə görüşünün 30 illiyinə həsr olunmuş "Gənc-Fest" festivalının 250-yə yaxın iştirakçısı noyabrın 25-də Milli Məclisdə olublar.



Əvvəlcə parlamentin plenar iclas zalı ilə tanış olan qonaqlara Milli Məclisin fəaliyyəti, plenar iclas zalında müasir texnologiyaların nailiyyətlərindən istifadə edilməklə yaradılmış iş şəraiti, səsvermə və qanunvericilik prosesinin həyata keçirilməsi prosedurları haqqında geniş məlumat verilib. Bildirilib ki, VI çağırış Milli Məclis formalaşdıqdan sonra spiker Sahibə Qafarova parlamentin İnzibati binasında mövcud olan görüş otaqlarının və iclas salonlarının adlandırılması haqqında sərəncam imzalayıb. Qonaqlara iclas salonlarının adları və təyinatları barədə məlumat verilib. Bildirilib ki, parlamentin binasında müstəqil Azərbaycanın memarı olan Ümummilli Liderin adını daşıyan xatirə zalı fəaliyyət göstərir. Heydər Əliyev xatirə zalını ziyarət edən gənclər burada müasir Azərbaycanın qurulmasında müstəsna rolu olan Ümummilli Lider Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlarla tanış olublar.

Sonra "Gənc-Fest" iştirakçıları Milli Məclisin foyesində yaradılmış və Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunmuş Zəfər Guşəsi ilə tanış olublar. Onlara Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə yaradılmış Zəfər Guşəsi haqqında məlumat verilib. Bildirilib ki, həmin guşəyə müharibə dövründə canlarından keçərək şəhidlik zirvəsinə ucalan əsgər və zabitlərimizin adları həkk olunub.

Milli Məclisin kitabxanasında isə qonaqlar İkinci Qarabağ müharibəsində qazanılan qələbəyə həsr olunmuş "Tarixə qızıl hərflərlə yazılan Zəfərin təntənəsi" adlı kitab sərgisi ilə tanış olublar. Kitabxana ilə tanışlıqda gənclərə kitab fondu, oxu zalında yaradılmış şərait, Milli Məclisin nəşrləri barədə məlumat verilib.

Milli Məclislə tanışlıq zamanı gənclərin parlamentin fəaliyyətinə, qanunvericilik prosesinin həyata keçirilməsinə dair sualları ətraflı cavablandırılıb.

Sonda gənclər Milli Məclisin İnzibati binasının foyesində Ulu Öndər Heydər Əliyevin xatirəsinə ucaldılmış abidə qarşısında xatirə şəkli çəkdiriblər.

***Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

# Daşkənddə Türk Dövlətləri Təşkilatının Müsəlman dini idarə rəhbərlərinin 4-cü görüşü baş tutub

Noyabrın 25-də Özbəkistanın paytaxtı Daşkənd şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) Müsəlman dini idarə rəhbərlərinin 4-cü görüşü keçirilib.




Qafqaz Müsəlmanları İdarəsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə "İslam ekstremizmə qarşı" sənədi müzakirə edilib. Eyni din, ortaq tarix, dil, mədəniyyət və adət-ənənələri bölüşən türk dövlətləri və xalqları arasında həmrəyliyin daha da möhkəmləndirilməsi, TDT-yə üzv ölkələrin milli-mənəvi mühitinə, dövlətçiliyinə və suverenliyinə qarşı hər hansı təhdidlər yaranarsa, birgə mövqedən çıxış etmək və Şura çərçivəsində fətva məsələləri üzrə işçi qrupunun yaradılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə Şuranın üzvləri - TDT-yə üzv ölkələrin Müsəlman dini idarə rəhbərləri və TDT-nin Baş katibi çıxış ediblər.

Məruzəçilər türk-islam həmrəyliyinin möhkəmləndirilməsində, dünyada sülhün və rifahın bərqərar olmasında, türk-islam mənəviyyatının və mədəniyyətinin təbliği və təşviqi, habelə onun zəngin potensialından istifadə edilməsi sahələrində TDT Müsəlman Dini İdarə rəhbərləri Şurasının əhəmiyyətini xüsusi vurğulayıblar.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını görüşün təşkilatçılarına və iştirakçılarına çatdırıb, belə bir tədbirin keçirilməsinə xeyir-dua verən və dəstək olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə Azərbaycan dindarları adından dərin təşəkkürünü ifadə edib. QMİ sədri deyib ki, müdrik siyasi liderlər İlham Əliyev ilə Şavkat Mirziyoyev arasındakı dostluq, qardaşlıq münasibətləri sayəsində dövlətlərimizin və xalqlarımızın hərtərəfli əməkdaşlıq əlaqələri daha da möhkəmlənir, inkişaf edir. Şeyxülislam A.Paşazadə Azərbaycan torpaqlarının erməni işğalından azad olunduqdan sonra Şavkat Mirziyoyevin Şuşanı ziyarət etməsini, Füzuli şəhərində özbək xalqının hədiyyəsi olaraq tikilmiş Mirzə Uluqbəy adına məktəbin açılışında Prezident İlham Əliyevlə birgə iştirakını əsl qardaşlıq nümunəsi kimi dəyərləndirib.

Görüşün sonunda Şura üzvləri "İslam ekstremizmə qarşı" sənədini yekdilliklə qəbul edib və imzalayıblar. Türk Dövlətləri Təşkilatının Müsəlman dini idarə rəhbərlərinin növbəti - 5-ci görüşünün Qazaxıstanda keçirilməsi qərara alınıb.

Tədbir çərçivəsində A.Paşazadə Özbəkistan Prezidentinin müşaviri Müzəffər Kamilov, Özbəkistan Müsəlmanları İdarəsinin sədri Nuriddin Xoliknazar, Türkiyə Diyanət İşləri Başqanı Ali Erbaş, TDT Baş katibi Kubanıçbek Ömüraliyev ilə ikitərəfli görüşlər keçirib.

Müzəffər Kamilovla görüşdə Prezident İlham Əliyev başda olmaqla, bütün Azərbaycan xalqına Zəfər bayramı münasibətilə təbrik çatdırılıb. Öz növbəsində A.Paşazadə Özbəkistan dövlətinə və xalqına Azərbaycanın haqlı mövqeyini dəstəklədikləri üçün minnətdarlığını ifadə edib. Görüşdə iki ölkə arasında mədəni-mənəvi əlaqələrin inkişafı məsələləri müzakirə olunub.

Görüşdə QMİ sədrinə Özbəkistan Beynəlxalq İslam Universitetinin fəxri doktoru adı və diplomu təqdim olunub.

# Azərbaycan Ordusunda ictimai-siyasi hazırlıq məşğələləri keçirilir

Şəxsi heyətin maarifləndirilməsi üzrə tədbirlər çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları ilə çöl şəraitində ictimai-siyasi hazırlıq məşğələləri keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məşğələlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diplomatik fəaliyyətinin tarixi əhəmiyyəti barədə ətraflı məlumat verilir, həmçinin hərbi əməliyyatlarda qəhrəman hərbçilərimizin göstərdikləri igidlik və şücaət nümunələrindən bəhs edilir.

Hərbi qulluqçularla keçirilən tərbiyəvi iş və siyasi məlumatlandırma saatlarında, eləcə də asudə vaxtlarda maarifləndirici söhbətlər, fikir mübadiləsi aparılır, onları maraqlandıran suallar cavablandırılır və xidmətləri ilə bağlı lazımi tövsiyələr verilir.



# Müdafiə Nazirliyinin rəhbərliyi rabitə bölmələrindən birinə baş çəkib

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov noyabrın 25-də Müdafiə Nazirliyinin Rabitə, İnformasiya Texnologiyaları və Kibertəhlükəsizlik Baş İdarəsinin tabeliyindəki hərbi hissələrdən birində olublar.



Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib. Müdafiə Nazirliyinin rəhbər heyəti hərbi hissənin ərazisindəki saxlanclara baxış keçirib. Azərbaycan Ordusunda dayanıqlı rabitənin təşkili və qoşunların gizli idarə edilməsi üçün nəzərdə tutulmuş müasir tələblərə cavab verən müxtəlif rabitə vasitələri və texnika nümunələri təqdim edilib, informasiya-kommunikasiya texnologiyaları mühitinə fasiləsiz müşahidə və nəzarəti həyata keçirmək üçün mövcud olan ən yeni texnoloji avadanlıqlar barədə məlumat diqqətə çatdırılıb.

Ordunun Baş Qərargah rəisi bölmələrdə rabitə vasitələri və informasiya texnologiyalarının daha da təkmilləşdirilməsi və səmərəli tətbiqinə dair aidiyyəti şəxslərə müvafiq tapşırıqlar verib.

SPECA

## Azərbaycanın təşəbbüsü ilə ilk ZİRVƏ görüşü




# Regionun dayanıqlı inkişaf platforması

## SPECA-nın Bakı Zirvə görüşündə qəbul edilmiş Yol Xəritəsi daha böyük uğurlara hədəflənib

Artıq dünya Azərbaycanı, həm də onun təkcə paytaxtını deyil, bir sıra digər şəhərlərini də möhtəşəm beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirildiyi məkan kimi tanıyır. Bu dəfə də Bakı həmin qəbildən daha bir tədbirə, əslində, bütün regionun dayanıqlı inkişaf platforması, Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsinə evsahibliyi etdi.

Həftədə geniş tədbirlər proqramı reallaşdırıldı. Noyabrın 24-də isə Heydər Əliyev Mərkəzində SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirildi. Tədbirin məqsəd və məramı Prezident İlham Əliyevin buradakı çıxışının elə əvvəlindəcə öz aydın əksini tapdı: "Bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümüdür. Hazırda Azərbaycan SPECA-ya sədrlik edir. İyirmi beş il ərzində ölkələrimiz arasında hərtərəfli əlaqələr uğurla inkişaf edib, ancaq SPECA-ya üzv dövlətlərin Zirvə görüşü ilk dəfə keçirilir. Zirvə görüşünün keçirilməsi ilə əlaqədar Azərbaycanın təşəbbüsünə dəstək verdikləri üçün Mərkəzi Asiya ölkələrinin rəhbərlərinə təşəkkürümü bildirirəm. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan bir sıra çoxtərəfli formatlarda uğurla əməkdaşlıq edir. Mənim dəvətimlə bu gün Zirvə görüşündə Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi fəxri qonaqlar qismində iştirak edirlər. Əminəm ki, bu tərkibdə keçirilən Zirvə görüşü daha geniş iqtisadi əməkdaşlıq formatına yol açacaq".

Xatırladaq ki, SPECA proqramına üzv dövlətlər Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstandır. 1998-ci ildə yaradılan proqrama Azərbaycan 2002-ci ildə qoşulub və birliyin fəal üzvlərindəndir. Proqramın məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir.

SPECA yarananda üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar. Odur ki, hər birinin qarşısında çoxsaylı problemlər, çağırışlar dayanırdı. İndi həmin çağırışların əsas hissəsi artıq arxada qalıb. Bu ölkələr dövlət suverenliyini möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişlər. Heç uzağa getməyək, elə öz ölkəmizdəki inkişafı təsdiqləyən bir neçə rəqəmi misal göstərək, zəngin iqtisadi resursları, dayanıqlı və inklüziv inkişaf modelini, rəqəmsal iqtisadiyyatın irəliləməsi istiqamətində görülən işləri, getdikcə genişlənən ticarət əlaqələrini xatırladaq. Son 20 il ərzində Azərbaycanda ümumi daxili məhsul istehsalı (ÜDM) 6,2 milyard dollardan 78,7 milyard dollara çatıb. Bu, ÜDM-nin real həcminin 4 dəfə artması deməkdir. Dövlət büdcəsinin gəlirləri 2002-ci ildə olduğu 0,9 milyard dollardan 20 dəfədən çox artaraq 18,01 milyard dollara yüksəlib. Sənayeləşmə siyasəti nəticəsində əldə olunan nailiyyətlər, istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsi, sənaye parkları və məhəllələri, qeyri-neft sənayesinin dinamik inkişafı da ürəkaçandır. 2002-2023-cü illərdə ölkədə 4 mindən çox sənaye müəssisəsi yaradılıb.

Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb. Əlverişli investisiya mühiti yaradılıb. Son iki onillikdə ölkə iqtisadiyyatına 310 milyard dollardan çox sərmayə qoyulub. Bunun da 200 milyard dollara yaxını qeyri-enerji sektorunun payına düşür. Ölkəmiz artıq Avrasiyanın "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində genişmiqyaslı işlər görülür. 2021-2023-cü illər ərzində 10 min kvadratkilometrdən çox ərazidə bərpa-quruculuq işlərinin həyata keçirilməsinə dövlət büdcəsindən 7 milyard dollar vəsait ayrılıb.

SPECA həftəsi digər üzv dövlətlərin də uğurlarının bir növ nümayişinə çevrildi. Məsələn, təşkilatın yaradılmasının 25 illiyi ilə bağlı Azərbaycanın xüsusi təşəbbüsü ilə "Bakı-Ekspo" Mərkəzində təşkil olunan sərgidə SPECA ölkələrinin stendlərində bu uğurlar aydın göründü. Burada Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanın dövlət müəssisələrinin və özəl şirkətlərinin məhsulları nümayiş olundu. Həm də maraqlıdır ki, stendlər vahid dizayn formatında quraşdırılmışdı.

Bu və digər faktlar da təsdiq edir ki, SPECA-ya üzv dövlətlər müstəqildirlər, müstəqil xarici, daxili, iqtisadi siyasət aparırlar. SPECA həftəsi də onların məhz həmin zəmindən çıxış edərək bir-birilə əlaqələrini getdikcə möhkəmləndirmək istiqamətində irəliyə doğru daha bir yeni addım oldu. Bu, SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Prezident İlham Əliyevlə görüşlərindəki söhbətlərin məzmunundan da aydın göründü. Məsələn, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevlə görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi məmnuniyyətlə qeyd olundu. Qazaxıstan neftinin Azərbaycan ərazisindən daşınması və ölkəmizin nəqliyyat imkanlarından istifadə edilməsi, bütövlükdə nəqliyyat-logistika imkanlarının və Trans-Xəzər nəqliyyat dəhlizinin inkişaf etdirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Həmçinin "Rəqəmsal İpək yolu" layihəsinin və Xəzər dənizinin dibi ilə xəttin çəkilməsi məsələsinin əhəmiyyəti və burada ölkələrimizin işbirliyi məmnuniyyətlə qeyd edildi. Eləcə də Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında Orta dəhliz üzrə multimodal əməkdaşlığın qurulması və bu xüsusda ayrıca şirkətin yaradılması həmin istiqamətdə nəqliyyat-logistika imkanlarının inkişaf etdirilməsi baxımından müsbət irəliləyiş kimi vurğulandı. Energetika sahəsində Azərbaycan-Qazaxıstan-Özbəkistan üçtərəfli əməkdaşlığı, Xəzərin dibi ilə elektrik xəttinin çəkilməsi və bunun gələcəkdə Avropa istiqamətində ixracı qeyd olundu.

Prezident İlham Əliyev Azərbaycanın hazırda Bakı-Tbilisi-Qars dəmir yolu ilə yanaşı, ölkəmizin cənub regionları istiqamətində İran ərazisindən keçməklə Naxçıvana və Türkiyə tərəfindən Qars-İğdır dəmir yolu xəttinin qurulması ilə yeni bir alternativ nəqliyyat dəhlizi formalaşdırmasının ötürücülük qabiliyyətinin və nəqliyyat imkanlarının artırılmasına töhfə verəcəyini diqqətə çatdırdı.

Əslində, bunlar bütün region, hətta daha geniş bir məkan üçün mühüm əhəmiyyət daşıyan məsələlərdir. Qeyd olunduğu kimi, Macarıstanın Baş naziri Viktor Orban SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak etdi. Bu da bir daha onu göstərdi ki, ölkələrimiz arasında iqtisadi inteqrasiya daha da dərinləşir, Mərkəzi Asiyanı Xəzər dənizi və Qara dənizlə birləşdirən nəqliyyat, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə yeni əməkdaşıq layihələri və platformaları inkişaf etdirilir. Azərbaycanın işğaldan azad olunmuş Cəbrayıl rayonunun Soltanlı kəndinin təməlqoyma mərasiminin Macarıstanla birgə həyata keçirilməsi böyük əhəmiyyətə malik bir hadisədir. Bu layihə macar şirkətlərinin iştirakı ilə icra olunacaq.

Prezident İlham Əliyev tərəfindən SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak üçün dəvət olunanlardan biri də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili idi. Dövlətimizin başçısı və qonşu ölkənin Baş naziri arasında söhbətin əsnasında Azərbaycanla Gürcüstan arasında mehriban dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olundu. Trans-Xəzər nəqliyyat dəhlizinin inkişafı və bu xüsusda Gürcüstan, Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artırılması məsələləri ətrafında fikir mübadiləsi aparıldı. Görüşdə Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olundu.

Son olaraq onu da qeyd edək ki, SPECA-nın Zirvə görüşünün yekununda Bakı Bəyannaməsi və Orta dəhlizin rəqəmsallaşdırılması ilə bağlı Yol Xəritəsi sənədləri qəbul edildi. Yollar isə daha yeni hədəflərə çağırır, daha böyük nailiyyətlərə doğru aparır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## "Azərbaycanın SPECA-da aparıcı rola malik olması təsadüfi deyil"

Xəbər verildiyi kimi, Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı olan SPECA-nın 25-ci ildönümünə həsr edilmiş Zirvə görüşü keçirilmişdir. Sammitdə iştirakçı ölkələrin dövlət və hökumət başçıları iştirak etmişlər.



Bu Zirvə görüşünün daha geniş iqtisadi əməkdaşlıq formatına yol açacağı şübhəsizdir. Həmçinin SPECA həftəsi ərzində Bakıda təşkil olunan iqtisadi forum ölkələrimiz arasındakı biznes əlaqələrinin inkişafına da mühüm töhfələr verəcək. Milli Məclisin deputatı Arzu Nağıyev qəzetimizə mövzu ilə bağlı şərhində deyib ki, BMT-nin Xüsusi Proqramı olan SPECA Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatlarının inkişafı və layihələrin koordinasiyalı şəkildə həyata keçirilməsi üçün vacib platformadır: "Onu da qeyd etmək lazımdır ki, bu proqramda Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistanla yanaşı, Əfqanıstanın da iştirakı mühüm aspektlərdən biridir. Tədbirdə eyni zamanda Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi də fəxri qonaq qismində iştirak etmişlər".

Deputat vurğulayıb ki, Azərbaycanın SPECA-dakı rolu isə xüsusidir: "Çünki Çindən Avropaya gedən yollar Orta və Mərkəzi Asiya ilə bərabər, həm də əsas dəhliz kimi Azərbaycandan keçir. Bu mənada bizim balanslı siyasət həyata keçirməyimiz mühüm əhəmiyyət kəsb edir. Bu proqramda xüsusi rolumuzun olması Prezident İlham Əliyevin apardığı uğurlu xarici və daxili siyasət nəticəsində mümkün olub. BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı olan SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşündəki çıxışlardan da aydın oldu ki, bu dövlətlərin Azərbaycana münasibəti dostyanadır, onlar Azərbaycanı siyasi dialoq ölkəsi kimi qəbul edir, iqtisadi islahatların aparıldığı və ciddi nəticə verdiyi bir dövlət kimi görürlər. Bu gün Azərbaycan həm də dünyada enerji təhlükəsizliyinə mühüm töhfə verən vacib dövlətlərdən biri hesab edilir. Ona görə də ölkəmizin SPECA-da aparıcı rola malik olması təsadüfi deyil", - deyə deputat qeyd edib.

Arzu Nağıyev Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa xüsusi önəm verdiyini də bildirib. Əlavə edib ki, Prezident İlham Əliyev son iki il ərzində Mərkəzi Asiya dövlətlərinə 10-dan çox səfər edib.

Deputat həmçinin Bakının toplantıya evsahibliyi məsələsinə də toxunub. Deyib ki, SPECA-nın Zirvə görüşünə Azərbaycanın evsahibliyi etməsi baxımından da əlamətdar hesab edilməlidir. Müsahibin sözlərinə görə, bu, bir daha sübut edir ki, Azərbaycan beynəlxalq tədbirlərin keçirildiyi mühüm məkana çevrilib.

Arzu Nağıyev yekunda Prezident İlham Əliyevin Zirvə toplantısındakı çıxışına diqqət çəkib, SPECA-nın inkişaf yolundan bəhs etdiyi məqamlara toxunub, çıxışdan sitat gətirib: "SPECA yaranandа üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar. Qarşımızda bir çox problemlər, çağırışlar durmuşdu. Son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik. Ölkələrimizi birləşdirən daha bir amil var, o da siyasi sabitlikdir. Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz". Doğrudan da, belədir. Prezidentin qeyd etdiyi kimi, bu gün dünyanın müxtəlif bölgələrində müharibələrin, münaqişələrin, qanlı toqquşmaların geniş vüsət aldığı bir vaxtda bizim ölkələrimizdə sülh, sabitlik və əmin-amanlığın hökm sürməsi, inkişafın, quruculuq proseslərinin uğurla getməsi dövlətlərimizin və xalqlarımızın böyük uğurudur.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## "SPECA-nın Zirvə görüşü Prezident İlham Əliyevin təşəbbüsüdür"

"Azərbaycan bu gün müxtəlif platformalar, o cümlədən MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı çərçivəsində Mərkəzi Asiya ölkələri ilə fəal əməkdaşlıq edir. Bu fəaliyyət vahid geoiqtisadi məkanın yaradılması, çağırış və təhdidlərin qarşısının birgə alınması üçün Mərkəzi Asiya regionu ilə qarşılıqlı fəaliyyətə yönəlib".



Bu sözləri Milli Məclisin deputatı Kamran Bayramov Bakıda keçirilmiş "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" sərgisinin əhəmiyyəti barədə qəzetimizə danışarkən deyib.

Bakıda keçirilən SPECA-nın Zirvə görüşünün mühüm hadisə olduğunu deyən deputat qeyd edib ki, SPECA-nın Zirvə görüşü Prezident İlham Əliyevin təşəbbüsüdür və bu təşəbbüsün irəli sürülməsi Avrasiya qitəsində yeni, daha əlverişli, daha ümidli geoiqtisadi konyunkturanın formalaşmasına xidmət edir: "Təsadüfi deyil ki, Zirvə görüşündən bir qədər əvvəl Prezident İlham Əliyev Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə vahid geoiqtisadi və geosiyasi formatın formalaşdırması barədə mühüm fikir bildirib".

"Xüsusilə qeyd edilməlidir ki, xarici dövlətlər və beynəlxalq təşkilatlar Qafqaz regionunu, Mərkəzi Asiya ölkələrini vahid və bütöv bir məkan hesab edir. Onlar həqiqətdən uzaq deyillər. Ona görə də BMT-nin Xüsusi Proqramı fonunda Prezident İlham Əliyev Mərkəzi Asiya regionu ilə qarşılıqlı fəaliyyətə dinamika vermək, onu daha da genişləndirmək üçün yeni təşəbbüslər irəli sürür, yeni imkanlar yaradır. Bununla yanaşı, Azərbaycan sənaye kompleksini inkişaf etdirir, texnoparklar yaradır, enerji istehsalını artırır. Təsadüfi deyil ki, biz həm də regionda "yaşıl enerji"nin inkişafında irəlidəyik, çünki bərpa olunan enerji mənbələrimiz çoxdur. Bütün bunlar Xəzər dənizi regionunun digər dövlətləri üçün böyük maraq kəsb edir", - deyə K.Bayramov əlavə edib.

Onun sözlərinə görə, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı da daxil olmaqla, müxtəlif formatlarda əməkdaşlığı təkcə iqtisadi inteqrasiyanı artırmağa deyil, həm də o qədər uzaq olmayan regionlarda baş verən yeni çağırışlar və risklər fonunda bir-birini dəstəkləməyə imkan verir: "Azərbaycan qlobal inteqrasiya işinə daha əhəmiyyətli töhfə vermək üçün Mərkəzi Asiya ölkələri ilə birlikdə nəqliyyat və enerji dəhlizlərinin imkanlarından istifadə etmək niyyətindədir. Bu da Qafqaz və Mərkəzi Asiyanın Avrasiya vahid sisteminin ayrılmaz hissəsinə çevrilməsinə, zamanın çağırışlarını birlikdə qəbul etməyə və hadisələri qabaqlamağa xidmət edəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## "ABŞ Azərbaycan əleyhinə ədalətsiz mövqe sərgiləməklə öz nüfuzuna zərbə vurur"

**"ABŞ dünyada "sülhün carçısı", "demokratiyanın beşiyi" kimi qulağa xoş gələn dəbdəbəli "status"unun əksinə fəaliyyət göstərir. Qarabağ probleminin həll olunması, Azərbaycanın dövlət suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən sonra, bunacan isə 30 ilə yaxın işğal dövründə ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-nin hansı mövqedə olması məlumdur".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov deyib. Deputat bildirib ki, Amerika dünyanın gözünə baxa-baxa ağa qara deməklə məşğuldur: "ABŞ rəhbərinin "erməni soyqırımı" ifadəsini işlətməsi, ətrafına ermənilərdən ibarət məmurları yığması, bu ölkənin parlamentində erməni maliyyəsi ilə qidalanan deputatların hazırda meydanda olması böyük bir dövləti çox çətin duruma salıb. Çünki ABŞ belə fikirlər söyləməklə, bəyanatlar verməklə özünün bütün dəyərlərindən imtina etmiş olur. Sadə hüquqşünas da bilir ki, Azərbaycan beynəlxalq hüququn prinsipləri çərçivəsində ədaləti bərpa və 30 ilə yaxın işğalda qalan torpaqlarını azad edib. Həm 44 günlük Vətən müharibəsini, həm də birgünlük lokal xarakterli antiterror tədbirlərini öz ərazisində həyata keçirib. Bütün bunlara baxmayaraq, ABŞ kimi bir dövlətin parlamenti belə ədalətsiz və özlərini ifşa edən bəyanatlar, sənədlər qəbul edir".

V.İsgəndərov xatırladıb ki, Azərbaycan parlamentində də ABŞ-nin "Ermənistana dəstək aktı" ilə bağlı bəyanat qəbul edilib: "İşçi komissiya yaradıldı və parlamentin mövqeyi elan edildi. ABŞ-nin bu fondakı fəaliyyəti, onların hansı təsirdə olması və nəyə görə belə fəaliyyət göstərmələri açıq-aydın dünyaya bəyan edildi. Azərbaycan ABŞ ilə olan münasibətlərində həmişə rasional siyasət həyata keçirib. Azərbaycanın xarici siyasətində ABŞ aparıcı və fəal dövlətlərdən biri olub. Həm ABŞ-nin yaratdığı koalisiya vaxtında, həm də ondan sonrakı proseslərdə Azərbaycan beynəlxalq humanitar dəyərlərə sadiq qalaraq, bütün siyasi proseslərdə real mövqeyi olan bir dövlət olub və Vaşinqton zaman-zaman bunu səsləndirsə də, hazırkı dövrdə erməni lobbisinin təsiri altında olan siyasətçilərin girovuna çevrilib".

Deputat qeyd edib ki, ABŞ ona lazım olmayan, heç bir dividend gətirməyən, hətta siyasi anlamda nüfuzuna xələl gətirən belə bəyanatlar verməklə özünü yalnız çətin vəziyyətə salmış olur. "Azərbaycan qələbəsi ilə yalnız beynəlxalq hüququn prinsiplərini bərpa edib və öz ərazisində yaşayan, orada doğulan erməniləri də Qarabağdan getməyə deyil, əksinə, qalmağa təşviq edərək bunun üçün reinteqrasiya proqramı elan edib. Ermənilər öz xoşları ilə çıxıb gediblərsə, onlar beynəlxalq hüquqla qaçqın və ya məcburi köçkün hesab olunmurlar. ABŞ-nin bütün bunlardan sonra ədalətsiz aktlar qəbul etməsi yolverilməzdir", - deyə o əlavə edib.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Müharibə küləyi bu dəfə Qərbdən əsir

## Ermənistanı özlərinin forpostu etmək istəyən Qərb ölkələri Cənubi Qafqazı yenidən münaqişə ocağına çevirmək istəyirlər

"Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır. Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir".




Noyabrın 24-də Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü zamanı Prezident İlham Əliyevin dünyaya bəyan etdiyi kimi, Ermənistanın bir neçə ölkənin forpostu olması, müstəqil siyasət yürüdə bilməməsi ümumilikdə regionu müharibə təhlükəsi ilə üz-üzə qoyub.

İkilistandartlı ABŞ, eyni zamanda başda müstəmləkəçi Fransa olmaqla bəzi Qərbi Avropa ölkələrinin Cənubi Qafqazda özlərinə yer etmək üçün təcavüzkar Ermənistana siyasi, hərbi dəstək vermələri bölgədə yenidən münaqişə ocağının yaranmasına hesablanıb. 44 günlük müharibədən, eləcə də 23 saatlıq antiterror tədbirlərindən dərs almayan marionet Ermənistan isə özünün məhvi olacaq savaş eyforiyasına qapılaraq sülhdən yayınır.

### "Sülh" adı altında onilliklər boyu həyata keçirilən qərəzli siyasət

Müstəqilliyinin ilk illərində ərazilərinin 20 faizi Ermənistan tərəfindən işğal olunan, bir milyondan çox vətəndaşı yurdundan didərgin salınan, soyqırımlarla üzləşən, 4 minə yaxın insanı əsir və girov düşən, yaşayış yerləri talanan, tarixi, dini, mədəni abidələri dağıdılan, torpaqları mina tarlasına çevrilən Azərbaycan düz 30 il ərzində yenidən müharibə olmaması üçün danışıqlar apardı, münaqişənin sülh yolu ilə həll olunmasına tərəfdar oldu. Amma Ermənistanın məqsədi işğal etdiyi əraziləri qoruyub saxlamaq olduğu üçün onilliklər boyu aparılan danışıqlar heç bir nəticə vermədi, "sülh" qiyafəsinə bürünmüş məkrli Qərb ölkələrinin səyləri sayəsində barış istiqamətində heç bir irəliləyişə nail olunmadı. Münaqişənin həllinə sülh yolu ilə nail olunması üçün missiyalandırılan keçmiş ATƏT-in Minsk qrupu danışıqların Ermənistanın xeyrinə sonsuzadək sürməsi üçün əlindən gələni etdi. Bu müddətdə Ermənistana yalan vədlər verən rüşvətxor həmsədrlər erməni lobbisinin pullarını yeməklə məşğul oldular.

Təbii ki, vəziyyətin bu cür davam etməsi işğala məruz qalan Azərbaycanı qane edə bilməzdi və etmədi də. 2020-ci ildə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsini öz gücü ilə yerinə yetirərək torpaqlarını işğaldan azad edən, suverenliyini bərpa edən və ərazisindəki separatizm yuvasını dağıdan Azərbaycan regionda yeni reallıqlar yaratdı.

### Azərbaycan davamlı sülhün tərəfdarıdır

Vətən müharibəsindən dərhal sonra Ermənistana təkmil sülh modeli təklif edən Azərbaycan dəfələrlə Cənubi Qafqazda davamlı sülhün tərəfdarı olduğunu, Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini bildirdi.

Ölkəmizi könüllü tərk edən erməni sakinlərə isə hər cür şərait yaradıldı. Hətta Azərbaycan polisinin yolda həmin sakinlərə su, çörək vermələri ilə bağlı paylaşılan videogörüntülər dünyada böyük maraqla izləndi. Bu sakinlər özləri də beynəlxalq KİV qarşısında öz xoşları ilə ölkəmizdən getdiklərini etiraf etdilər. Hətta bu faktları Qarabağ bölgəsinə bir neçə dəfə səfər edən BMT missiyası və digər əlaqədar beynəlxalq qurumlar da təsdiqlədilər.

O da vurğulanası vacib məqamdır ki, Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) 2023-cü il 17 noyabr tarixli qərarı ilə Ermənistanın Azərbaycana qarşı əsas iddialarını rədd etmişdir. Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiqləyən BƏM bu qərarı ilə ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində təmin etdiyi milli maraqlarını qəbul etdiyini bildirmişdir.

Lakin sadalanan bütün bu reallıqlara rəğmən, Qərb ölkələri Azərbaycanı "etnik təmizləmə"də günahlandırır, ölkəmizə qarşı qərəzli bəyanatlar verir, qətnamələr qəbul edir, bir sözlə, sülhdən başqa nəyə desən xidmət edən məkrli fəaliyyət göstərirlər.

Hələ 1990-cı illərin əvvəllərində "907-ci düzəliş"lə Azərbaycana qarşı ikilistandartlı münasibətdə olduğunu açıq nümayiş etdirən ABŞ Qarabağ münaqişəsinin nizamlanması prosesində vasitəçi kimi də tərəflərin sülhə gəlməsi üçün heç bir iş görməmiş, təcavüzkar Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə göz yummuşdur. "Humanist" ABŞ 1988-1993-cü illər ərzində etnik təmizləməyə məruz qalan, deportasiya olunan, yurdundan didərgin salınan bir milyondan çox azərbaycanlını görməzdən gəlib bu insanların taleyi ilə heç zaman maraqlanmamışdır.

Ağ Evin indi Qarabağı könüllü tərk edən erməniəsilli sakinlərin "zorla qovulması"ndan dəm vurması, ABŞ Senatının ölkəmizi hədəf alan "2023-cü il erməniləri müdafiə aktı"nı qəbul etməsi ABŞ-nin Azərbaycana qarşı ikiüzlü siyasətindən xəbər verir. Eynilə də neokolonialist Fransanın ölkəmizi "etnik təmizləmə"də günahlandırması Makron hakimiyyətinin ədalətsizliyini bariz şəkildə ortaya qoyur.

ABŞ kimi, Fransanın da keçmiş Minsk qrupu tərkibində danışıqlarda iştirak etdiyi dövrdə sülhlə əlaqədar hansısa əməli fəaliyyətini görməmişik. Rəsmi Parisin işğal faktına görə İrəvana qarşı bir dəfə də olsun hansısa bəyanat verməsinə, qətnamə qəbul etməsinə şahidlik etməmişik.

Amma Vətən müharibəsindən, xüsusilə də Azərbaycanın suverenliyini təmin etməsindən sonra məkrli Qərb ölkələri Azərbaycana qarşı açıq hücuma keçiblər. Bunu biz ABŞ-nin qərəzli bəyanat və qətnamələrində, Avropa İttifaqının Ermənistana "müşahidə missiyası"nı göndərməsində, Fransanın Ermənistanı silahlandırmasının fonunda aydın görürük. Bütün bunlar Qərb siyasi dairələrinin dildə sülh, əslində isə bölgəni müharibə ocağına çevirmək niyyətini ortaya qoyur.

Lakin Cənubi Qafqazın lider ölkəsi Azərbaycan dünyanın o başında oturub regiona ağalıq etmək istəyən "demokratik" ölkələrin bölgəni hərc-mərclik meydanına çevirmələrinə heç zaman imkan verməyəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## "ABŞ-ni rahatsız edən Azərbaycanın artan gücü və nüfuzudur"

ABŞ senatorları və konqresmenləri ölkəmiz əleyhinə qərəzli bəyanatlar yaymaqla regionda sülhün bərqərar olmasına əngəl törədirlər. Qeyri-obyektiv müzakirələr nəticəsində qəbul edilən "2023-cü il erməniləri müdafiə aktı" iki ölkə arasında strateji münasibətlərə ciddi zərbə vurmaqla yanaşı, həm də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına mane olur.



Bu həm də Vaşinqtonun mövcud siyasi reallıqlarda qeyri-peşəkar davrandığını sübut edir. Milli Məclisin ABŞ Senatının "2023-cü il erməniləri müdafiə aktı" ilə əlaqədar bəyanatında da ölkəmizi hədəf alan davranışlar şiddətlə qınanılıb. Bununla bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Sevil Mikayılova deyib ki, bir sıra senator və konqresmenlərin Azərbaycanla bağlı səsləndirdikləri fikirlər siyasi riyakarlıq nümunələridir: "Bu qeyri-peşəkar və riyakar davranışlar ABŞ-nin regiondakı nüfuzuna ciddi xələl gətirir. Görünən odur ki, Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri nəticəsində Qarabağda suverenliyini tam bərpa etməsi və bunun nəticəsi olaraq, separatçı rejimə son qoyması ABŞ-nin siyasi dairələrini çaşdırıb. Uydurduqları cəfəngiyyatları isə sənədlər, aktlar və bəyanatlar üzərində rəsmiləşdiriblər".

Deputatın sözlərinə görə, işğalçıya dəstək mənasını verən məlum akt heç bir hüquqi normaya sığmır: "Lakin uzun illər ərzində Azərbaycan torpaqları işğala məruz qalanda Ermənistanı bircə dəfə də olsun qınamayan, əksinə, "Azadlığa dəstək aktı"na 907-ci düzəliş edərək ökəmizə maliyyə yardımını dayandıran ABŞ-nin indi belə davranması təəccüblü deyil. Ən çətin vaxtlarımızda öz ambisiyaları xətrinə bizə qarşı haqsızlıq edən ölkədən başqa nəsə gözləmək real görünmür. Sadəcə olaraq, bu ölkə 1992-ci ildə həyata keçirdiyi yanlış siyasəti təkrarlamaqla ciddi strateji səhvə yol verir".

Sevil Mikayılova xatırladıb ki, 11 sentyabr hücumlarından sonra dövlətlərarası münasibətlərin yaxşılaşması nəticəsində ABŞ çox rasional qərar qəbul edərək "907-ci düzəliş"i dondurmuşdu: "Bu qərar münasibətlərimizdə yeni keyfiyyət dəyişikliyi yaratmışdı. Lakin Azərbaycanın Qarabağ münaqişəsini tam və birdəfəlik həll etməsi, torpaqlarını erməni işğalından qurtarması, görünür, ABŞ-ni ciddi narahat edib. Xüsusilə Vətən müharibəsində və sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycanın hərbi-siyasi iradə nümayiş etdirərək ədaləti bərpa etməsi ABŞ-də ölkəmizə qarşı olan qərəzi alovlandırıb".

Deputat onu da qeyd edib ki, ABŞ-nin məlum qərəzinə Qərb mediasında başqa don geyindirilir. Güya ABŞ-nin Ermənistana dəstəyi onu Rusiyanın təsirindən çıxarmaq məqsədi daşıyır. Sual olunur, bəs bu prosesdə Azərbaycanı hədəfə almaq necə izah oluna bilər?! Yəni burada qeyri-müəyyən məqamlar çoxdur.

"Xüsusi qeyd etmək lazımdır ki, burada uduzan tərəf Ermənistandır. Çünki bu ölkə Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər qazanaraq torpaqlarını işğaldan azad etməsi ilə yanaşı, həm də Ermənistan üçün də tarixi fürsət yaratdığını başa düşmür. İrəvan başa düşməlidir ki, onlar üçün fəaliyyət azadlığı yaranıb. Belə olan halda yaxşı olardı ki, Ermənistan bu tarixi fürsəti dəyərləndirsin", - deyə müsahibimiz qeyd edib.

Sevil Mikayılova söyləyib ki, həmçinin Qərb və ABŞ Cənubi Qafqaza sülh mühitini gətirən Azərbaycana minnətdar olmalı, qərəzli mövqe nümayiş etdirmək əvəzinə münasibətləri dərinləşdirməlidirlər: "Lakin tarixin bütün dövrlərində olduğu kimi, bu gün də hegemon dövlətlər digərlərinin güclənməsini və müstəqil siyasət yürütməsini həzm edə bilmir, onları cəzalandırmaq üçün hər cür yola əl atırlar. Qərb və ABŞ-nin hazırkı mövqeyi də budur. Onları rahatsız edən başlıca amil Azərbaycanın sürətlə artan gücü və nüfuzudur".

Deputat yekunda Azərbaycanın mövqeyinə hansısa formada təzyiq göstərməyin mümkünsüz olduğunu da vurğulayıb. Bildirib ki, bu cür beynəlxalq təzyiqlər istənilən halda xalqımızın və Prezidentimizin siyasi iradəsinə təsir etmək iqtidarında deyil: "Ona görə də Ermənistan Qərbin və ABŞ-nin saxta dəstəyinin sadəcə siyasi gediş olduğunu dərk etməli, ölkəmizə qarşı aqressiyadan və revanş iddialardan əl çəkməlidir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Siyasi korluq

## Qərb aydınlıqda həqiqəti niyə görmür?

Təxminən üç onilliyi əhatə edən zaman kəsiyində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti regionda sabitliyə və təhlükəsizliyə ciddi təhdidlər törədirdi. Münaqişənin sülh yolu ilə həll olunması üçün aparılan beynəlxalq danışıqlar da yaxşı nə isə vəd etmirdi. Getdikcə uzanan danışıqlar vaxt itkisindən başqa bir şey deyildi.



Həmin günlər Qərb ölkələri özlərini sülhün tərəfdarı, az qala sülhün carçısı kimi göstərirdilər. Ən azından bunun görüntüsünü yaradırdılar. Təbii ki, bu, sülhə heç bir töhfə verə bilməzdi. Çünki bu ölkə rəhbərlərinin heç biri özündə güc tapıb Ermənistanı işğalçı adlandırmırdı. Torpaqları Ermənistan tərəfindən işğal olunmuş Azərbaycanın isə səbri tükənməz deyildi. Nəhayət, erməni təxribatı nəticəsində başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Zəfər qazanaraq özünün ərazi bütövlüyünü təmin etdi və bununla həm də regionda yeni reallıqlar yaratdı.

Qərbin əsl siması da bundan sonra üzə çıxdı. Dünənə qədər aparılan danışıqlarda sülh görüntüsü yaradan Qərb ölkələrinin maskaları üzlərindən düşdü və bir-birinə qoşulub ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirməyə başladılar.

Başda Fransa olmaqla bir çox Qərb ölkəsinin 44 günlük müharibədə və sonrakı dövrdə ölkəmizə qarşı ikili standartlara yol verməsi cəmiyyətimizdə haqlı olaraq qəti etirazla qarşılandı. Qərbin ölkəmizə qarşı qərəzli münasibəti ilk dəfə deyildi. Biz bunu əvvəllər çox görmüşdük. Həmin dövlətlər hələ sülh danışıqları prosesində həmişə Ermənistanı dəstəkləmişdi. Belə ölkələrdən isə yaxşı heç nə gözləmək olmazdı. Bu gün də Qərbin ölkəmizə qarşı qarayaxmaları səngimək bilmir. Yalanlar, şər-böhtanlar bir-birinin ucuna düyülüb, qeyri-müəyyən istiqamətdə getməyindədir.

Təəssüf ki, üstündən illər keçsə də, Qərb ölkələrinin pas atmış köhnə düşüncələri dəyişməyib. Dünənə qədər bölgədə sülhdən danışan ölkələr indi Ermənistana silah-sursat göndərir, maddi yardım ayırırlar. Bununla da yenidən münaqişə ocağı yaratmağa çalışırlar. Son günlər Avropa ölkələrində, ABŞ-də boş-boşuna səs-küy qoparıb Azərbaycana qarşı böhtan xarakterli sürüşkən tövsiyələr səsləndirirlər. Bütün bunlar Qərb ölkələrinin növbəti dəfə öz qərəzli mövqeyinə sadiq qaldığını göstərir.

Bəs görəsən, Qərb 33 il əvvəl məhz Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləməni görməmişdi? Təbii ki, görmüşdü, sadəcə, erməni lobbisinə yararlanmaq üçün susmağı üstün tutmuşdu! 100 minlərlə azərbaycanlının əsrlərboyu yaşadıqları yurdlarından qovulmasına, hüquqlarının vəhşicəsinə tapdalanmasına, yüzlərlə insanın qətlə yetirilməsinə göz yuman Qərb ölkələri bunlarla bağlı hər hansı bir qərar qəbul edibmi? Təbii ki, yox! Bunu heç onlardan gözləməyə də dəyməz. Qoy Fransa başda olmaqla Qərb ölkələri bilsinlər ki, 30 il Ermənistanın işğalçılıq siyasəti ilə təkbaşına mübarizə aparmış Azərbaycan öz ərazisini, əzəli torpaqlarını işğaldan azad edib və bu gün regionda sülhün, sabitliyin bərqərar olmasına çalışır. Yaxşı olardı ki, Qərb ölkələri Azərbaycan və Ermənistan arasında gərginliyi artırmaq yox, sülhün bərqərar olunmasına çalışsınlar. Silahlarını bölgədən yığışdırıb aparsınlar, sülh müqaviləsinin bağlanmasına kömək etsinlər.

Ölkəmiz sülhün tərəfdarı olduğunu dəfələrlə bəyan edib. Bu gün də sözünün üstündədir. Azərbaycanın mövqeyi birmənalıdır - Ermənistanın işğal illərində törətdiyi cinayətlərə, dağıntılara rəğmən respublikamız müharibə səhifəsini bağlamaq və sabitliyə zəmin yaradacaq gələcəyə baxmaq istəyir. Prezident İlham Əliyev Azərbaycanın ədalət prinsipinə və beynəlxalq hüquq normalarına əsaslanan mövqeyini dəfələrlə dünya ictimaiyyətinin diqqətinə çatdırıb: "Biz... sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyirik. Artıq sülh sazişini imzalamağın vaxtı gəlib".

Qərbin Azərbaycana qarşı mövqeyinin qərəzli olduğu gün kimi aydındır. Həm Qərb ölkələrində, həm də Amerikada son günlər baş verən hadisələrin fonunda bunu görmək elə də çətin bir şey deyil. Amma təəssüflər olsun ki, uğurlarımızı həzm edə bilməyən Qərb ölkələrində gün kimi aydın olan gur işıqlıqda həqiqəti görməyənlər var. Təbiidir ki, bu, fiziki deyil, qarayaxmaya xidmət edən qərəzli siyasi korluqdur. Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko son günlər Qərb ölkələrində, həmçinin ABŞ-də Azərbaycana qarşı göstərilən mövqeyə münasibət bidirərək qeyd edib ki, Qərb Azərbaycanı və Azərbaycan xalqını qaralamaq üçün ən rəzil təxribatlardan istifadə edir: "Əslində, Ermənistan işğalçı və təcavüzkar olduğu halda, Azərbaycana tonlarla neqativ yüklənilməsinə və ABŞ sakinlərinə Cənubi Qafqazda baş verənlərin əsas təqsirkarının Azərbaycan olduğu fikrinin aşılanmasına haqq qazandırılır. Fikrimcə, Ermənistana, erməni hərbi cinayətkarlarına, erməni işğalı faktlarına, 44 günlük müharibə müddətində Azərbaycanın dinc şəhərlərinə kütləvi raket zərbələrinə haqq qazandırmaq üçün bu cinayətlərə susmaq və ya onları unutmaq kömək etməyəcək".

Ermənistanı dəstəkləyən Qərb ölkələri sanki bir-biri ilə yarışa giriblər. Təbiidir ki, nə qədər gizlətməyə çalışsalar da, bu qarayaxmada həmin ölkələrin öz maraqları var. Onlar həmin maraqlarını reallaşdırmaq üçün bölgədə ikiüzlü siyasət yürüdürlər. Erməniləri dəstəkləyərək Cənubi Qafqazda həqiqətdə baş verənlərin aşkara çıxmasına imkan vermirlər. Əlbəttə ki, dediklərimizin sırasına həm də Fransanın xüsusi təhrikçi fəaliyyəti də daxildir. Bu ölkə müstəmləkəçilik dövründə dəhşətli cinayətləri, Əlcəzair xalqının soyqırımı, əvvəlki dövrlərdə əsarətdə saxladığı bir sıra Cənub-Şərqi Asiya ölkələrinin onlarca dinc sakinini məhv etməsi ilə tanınıb.

İstər Qərb ölkələri, istərsə də ABŞ qərəzli mövqeləri ilə bölgədə heç bir reallığı dəyişə bilməyəcəklər. Çünki bölgədə söz sahibi Azərbaycandır. Həmişə sülhün tərəfdarı olan rəsmi Bakı regionda şərtləri özü diktə edir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***



**QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR**
***dirçəliş yolundadır***



# Kəlbəcərdə üçrəngli bayrağımızın ucaldığı tarixi gün









2020-ci il noyabrın 25-i Azərbaycan tarixinə Kəlbəcərin erməni işğalından azad edildiyi gün kimi yazılıb. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı sərəncama əsasən, bu şanlı tarix Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.




AZƏRTAC xəbər verir ki, bu gün Azərbaycanın dilbər guşələrindən olan Kəlbəcərin işğaldan azad edilməsindən üç il ötür. Qırx dörd günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə ordumuzun şanlı zəfəri Ermənistanı kapitulyasiya aktını imzalamağa və əraziləri boşaltmağa məcbur etdi. Beləliklə, Kəlbəcər və Laçın rayonları, Ağdam rayonunun işğal altında qalan hissəsi bir güllə atılmadan mərhələli şəkildə Azərbaycana təhvil verildi. Üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi.

## Kəlbəcərdə erməni vəhşiliyinin izləri

Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal olunmuşdu. İşğal nəticəsində 511 dinc sakin öldürülmüş, 321 nəfər əsir götürülmüş və itkin düşmüşdü.

İşğalçılar onlarla tarixi-mədəniyyət abidəsini, 97 məktəbi, 9 uşaq bağçasını, 116 kitabxananı, 43 klubu, 42 mədəniyyət evini, tarix-diyarşünaslıq muzeyini, 9 xəstəxananı, 75 tibb məntəqəsini, 23 ambulatoriyanı, 9 apteki, yüzlərlə inzibati binanı, minlərlə evi, çoxlu sayda texnikanı talan edib, dağıdıb və rayonun milyardlarla manatlıq sərvətini Ermənistana daşıyıblar.

Kəlbəcərdə erməni vəhşiliyinin izləri hər addımda görünür. Dağıntı və talanlar həm işğal dövründə, həm də 2020-ci ildə ermənilər rayondan çıxarkən davam etdirilib. İşğaldan azad olunan Kəlbəcərə səfər edən Prezident İlham Əliyev bu barədə danışarkən deyib: "Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar".

İkinci Qarabağ müharibəsinin ilk günlərində Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad olunmuşdu. Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər nəticəsində strateji yüksəkliklərin götürülməsi həmin istiqamətdə erməni silahlı qüvvələrinin hərəkətlərini böyük dərəcədə məhdudlaşdırmağa imkan yaratdı. Əks-hücum əməliyyatının tərkib hissəsi olan bu əməliyyatların gedişində Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edildi, amma əksər hissəsi Ermənistan kapitulyasiya aktına imza atandan sonra azadlığına qovuşdu.

2021-ci il avqustun 16-da Prezident İlham Əliyev Kəlbəcər şəhərində dövlət bayrağını ucaltdı və çıxışında bu tarixi hadisənin əhəmiyyətindən bəhs edərək dedi: "Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq".

Kəlbəcər zəngin təbii sərvətləri və gözəl təbiəti olan diyardır. Rayonun əlverişli relyefi, saf dağ iqlimi, mineral suları, o cümlədən Yuxarı İstisu, Aşağı İstisu kimi müalicəvi təsirə malik mineral su yataqları burada turizmin inkişafı üçün geniş imkanlar yaradır.

Kəlbəcər həm də turistlərdə maraq yarada biləcək bir çox tarixi abidələrlə zəngindir. Burada 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə islamın yayıldığı dövrlərin yadigarlarıdır.

## Kəlbəcərə yenidən həyat qayıdır

Otuz il əvvəl məcburi köçkünə çevrilərək respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmış kəlbəcərlilər doğma yurda qayıdacaqları günü gözləyirlər. Bu məqsədlə işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərdə də genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Həmin layihələr sırasında Toğanalı-Kəlbəcər avtomobil yolunun inşası xüsusi əhəmiyyət kəsb edir. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən bu yolun layihə uzunluğu 80,7 kilometrdir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın 2021-ci il avqustun 16-da Kəlbəcər rayonuna səfəri zamanı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində - Murovdağda inşa olunacaq tunelin təməli qoyulub. Səfər çərçivəsində 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyasının açılışı olub. Həmçinin Kəlbəcər-Laçın avtomobil yolu üzərində 3,4 kilometr uzunluğundakı tunelin tikintisinə start verilib.

Ötən il iyunun 26-da Azərbaycan Prezidenti Kəlbəcər rayonunda yeni tikilmiş "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışlarında iştirak edib, Kəlbəcər şəhərinin Baş planı ilə tanış olub.

Həmin gün Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, rayondakı su istehsalı zavodunun, İstisu sanatoriyasının təməli qoyulub.

Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Müzəffər Ali Baş Komandan İlham Əliyev bu tədbirin xüsusi məna daşıdığını vurğulayıb: "Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə, bu bölgədə - Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır".

Kəlbəcər rayonunda tikintisi gedən mühüm infrastruktur obyektlərindən biri də "İstisu" sanatoriyasıdır. Təməlqoyma mərasimində Azərbaycan Prezidentinin də iştirak etdiyi İstisu qəsəbəsində yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılır.

Azərbaycan Prezidenti İlham Əliyev bu il mayın 27-də Kəlbəcər rayonuna səfəri çərçivəsində hərbi hospitalın, "Qamışlı" və "Meydan" Kiçik Su-Elektrik stansiyalarının açılışlarında, yaşayış məhəlləsinin və 960 şagird yerlik məktəbin, həmçinin Yanşaq və Zallar kəndlərinin təməlqoyma mərasimlərində iştirak edib.

Bu il avqustun 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna daha bir səfər ediblər. Səfər çərçivəsində bir neçə kiçik su-elektrik stansiyasının açılışı olub, Zar kəndinin təməli qoyulub.

Göründüyü kimi, Kəlbəcər rayonunda aparılan nəhəng quruculuq işləri bu diyarın gözəl gələcəyindən, azad olunmuş ərazilərə Böyük qayıdışın uğurlu perspektivindən xəbər verir.

Vətən müharibəsində Azərbaycanın qazandığı böyük zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın iqtisadiyyata reinteqrasiyası ümumilikdə ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün yeni üfüqlər açır.

# Kəlbəcər Şəhəri Günü münasibətilə tədbir keçirilib





Azərbaycan Respublikasının işğaldan azad olunmuş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 21 iyul tarixli Sərəncamına əsasən, 25 Noyabr - Kəlbəcər Şəhəri Günüdür.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisindəki bölmələrindən birində bu münasibətlə tədbir keçirilib. Tədbirdə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla anılıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər bildiriblər ki, Müzəffər Ali Baş Komandanın qətiyyəti və uzaqgörən siyasəti sayəsində tarixi torpaqlarımız işğaldan azad olunaraq ərazi bütövlüyümüz tam təmin edilib. Kəlbəcər Şəhəri Gününün ölkəmizin hər bir yerində, o cümlədən azad edilmiş ərazilərimizdə böyük qürur və iftixar hissi ilə qeyd olunduğu xüsusi vurğulanıb.

Vətən müharibəsində əldə olunmuş tarixi Qələbəni əbədiləşdirmək məqsədilə belə tədbirlərin keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Tədbirdə hərbi qulluqçular Azərbaycan Ordusunda, xüsusilə azad olunmuş ərazilərdəki bölmələrdə xidmət etməkdən qürur duyduqlarını bildiriblər.

# Milli Kitabxana Kəlbəcər Şəhəri Günü ilə bağlı virtual sərgi təqdim edib

Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "25 Noyabr - Kəlbəcər Şəhəri Günü" adlı virtual sərgi hazırlanıb.



Kitabxanadan AZƏRTAC-a bildirilib ki, virtual sərgidə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Prezidentin fərmanı, dövri mətbuat səhifələrində Kəlbəcər şəhəri haqqında dərc olunan məqalələr və ensiklopedik məlumatlar, Qarabağ Zəfəri, Kəlbəcər şəhərinin tarixi haqqında kitablar nümayiş olunur. Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 2023-cü il 31 iyul tarixli Sərəncamına əsasən noyabrın 25-i Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.

# *Vətən müharibəsi iştirakçısı:* "Sevinirəm ki, Kəlbəcərdə yaşamaq mənə də nəsib olacaq"

Elvin Mamedov Kəlbəcər işğal olunan il dünyaya göz açıb. Amma sən demə, onun taleyində Vətən müharibəsinin iştirakçısı olmaq, Qarabağ torpaqlarının azadlığı uğrunda qəhrəmanlıq göstərmək də varmış...



AZƏRTAC xəbər verir ki, Xüsusi Təyinatlı Qüvvələrin əsgəri olan Elvin cəbhənin bütün istiqamətlərində - Kəlbəcər, Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı, Xocavənd və Şuşada döyüşüb. Qubadlı döyüşləri zamanı yaralansa da, qısamüddətli müalicədən sonra yenidən cəbhəyə qayıdıb, Tuğ kəndinin azad olunmasında fəal iştirak edib.

"Bir kəlbəcərli və Vətən müharibəsinin döyüşçüsü kimi bu gün böyük iftixar hissi keçirirəm. İlk növbədə ona görə ki, Vətənimiz bütövdür, sərhədlərimiz etibarlı şəkildə qorunur. Bundan sonra bu torpağa düşmən ayağı dəyə bilməz. İkincisi, ona görə ki, bu Qələbənin qazanılmasında mənim də zəhmətim var. Azad Vətənimizin, demək olar ki, işğal altında olan hər rayonu uğrunda döyüşlərdə iştirak etmişəm. Bu da başqa hissdir. Ən nəhayət, bir də ona sevinirəm ki, xəyalımda yaşatdığım, gözəlliyi, füsunkarlığı haqqında valideynlərimdən eşitdiyim dağlar diyarı Kəlbəcərə dönmək, orada yaşamaq mənə də nəsib olacaq".

Elvin Mamedov Zəfər müharibəsindən 7 medalla qayıdıb. Onun sinəsini "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" və "Şücaətə görə" medalları bəzəyir.

# Kəlbəcərə qayıdış arzusu

"Vətəni müqəddəsləşdirən onun uğrunda aparılan mübarizə, üzərinə tökülən qandır. Əbəs yerə demirlər ki, torpağın üstünə su töküləndə palçıq olur, qan töküləndə Vətən". Bu sözləri AZƏRTAC-ın müxbiri ilə söhbətində hazırda Mingəçevirdə yaşayan Kəlbəcər sakini Mahir Cəfərov deyib".

Mahir doğma rayonun başı üzərini təhlükə alanda silaha ilk sarılanlardan olub. O, əvvəlcə Ağdaban kəndinin erməni yaraqlılarının hücumundan müdafiəsində iştirak edib. Onun komandiri Ülfət Kərimov kəndə hücum edən ermənilərin zirehli texnika və tankını məhv edərək şəhidlik zirvəsinə ucalıb. 1992-ci ilin aprelində düşmən hərbçiləri kəndə od vurub dinc sakinlərin başına olmazın müsibət gətirəndən sonra başsız qalan özünümüdafiə dəstəsi döyüş mövqeyini dəyişərək Başlıbelin müdafiəsində iştirak edib.



Keçmiş döyüşçü deyir: "Başlıbeldə baş verənlərdən indi artıq hamının xəbəri var. Biz bir neçə döyüşçü Kəlbəcərin işğalından sonra rayonu tərk etməyə imkan tapa bilməyən yerli sakinlərlə birlikdə Dəlidağdakı kahalara çəkilərək kəndin mərd oğlanları ilə birlikdə yaşamaq uğrunda mübarizə apardıq. Doğrudur, qışın iliyə işləyən sazaqlı havasında təpədən dırnağa qədər silahlanmış erməni yaraqlılarına qarşı bir neçə avtomat və tüfənglə mübarizə aparmaq çox çətin idi, lakin heç nəyə məhəl qoymadan ölüm-dirim savaşına çıxdıq. Gücümüz dörd aya yaxın məhrumiyyətli həyat yaşayan sakinlərin yalnız bir hissəsini xilas etməyə çatdı. Ömrümün gənclik illərinə təsadüf edən həmin hadisələr heç vaxt unudulan deyil..."

Bu gün hər bir Kəlbəcər sakini kimi Mahir də doğma rayonun işğaldan azad olmasından böyük sevinc və qürur hissi keçirir: "Başımıza gələnlər, yaşadığımız çətinliklər heç vaxt yaddan çıxmaz, lakin bunlar bizim qan yaddaşımıza çevrilməlidir. Rayonumuzdan erməni yaraqlılarının ayağı kəsiləndən sonra bir neçə dəfə doğma yerləri ziyarət etmişəm. Mənim üçün, o ağır günləri yaşayan hər kəs üçün Kəlbəcərin hər qarışı çox qiymətlidir. İndiki günlərə, azad ata-baba ocağına, yurd yerlərimizə qovuşduğumuz üçün çox xoşbəxtik. Bu günü bizə yaşadanlara da özümüzü borclu bilirik. İndi hamı kimi məni də o yerlərə əbədi olaraq dönmək, orada yaşamaq və işləmək qayğıları düşündürür. Açığını deyim ki, çox gözəl hisslərdir. Bu hisslərlə yaşamaq və Kəlbəcərə dönüş gününü səbirsizliklə gözləmək də gözəldir. Elə bilirəm ki, əsl həyat ondan başlayacaq".

# REGİONLAR

## Kəlbəcərdə yenidən qurulan 6 SES istismara verilib

**Kəlbəcər rayonunda bu günədək "Azərenerji" tərəfindən 6 yerdə kiçik su-elektrik stansiyası yenidən qurularaq istismara verilib.**

2022-ci ildə 4,4 meqavat gücündə "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasının, cari ildə isə 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik su-elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub.

Hazırda Kəlbəcər rayonunda "Azərenerji" tərəfindən 4 yerdə kiçik su-elektrik stansiyasının tikintisi aparılır. "Aşağı Vəng", "Yuxarı Vəng", "Nadirxanlı" və "Zar" adlanacaq kiçik su-elektrik stansiyalarının 2024-cü ildə istismara verilməsi planlaşdırılıb.

Xatırladaq ki, Kəlbəcər rayonu azad ediləndən dərhal sonra Daşkəsən rayonundan Kəlbəcərə 3500 metr yüksəklikdəki Murov dağını keçməklə 70 km məsafədə yüksəkgərginlikli ikidövrəli ötürmə xətti çəkilib. Dağlar sıldırımlı, hava sərt şaxtalı, qarın qalınlığı 3-5 metrə çatan yolsuz ərazilərdə hündürlüyü 50 metr, çəkisi 10 ton olan anker dayaqlar quraşdırılaraq şəraitsiz vəziyyətdə vəzifə icra edilib. Paralel olaraq, sərt iqlim və çətin relyefdə yerləşən Kəlbəcərdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilib. 2021-ci ilin yayında yarımstansiyanın açılışı olub.



## Qazaxda soyuq qəhvə istehsal edən müəssisə fəaliyyətə başlayıb

**Qazaxda sahibkarlığın inkişafına diqqətlə yanaşılır. Bunun nəticəsidir ki, son illər rayon üzrə bu sahədə bir sıra uğurlu addımlar atılmışdır.**



Bu günlər Xanlıqlar kəndində maye halda qablaşdırılan soyuq qəhvə istehsal edən müəssisə fəaliyyətə başlamışdır. Ümumi torpaq sahəsi 2 hektar, istehsal sahəsi 2160 kvadratmetr olan müəssisənin istehsal etdiyi məhsul "Corretto" əmtəə nişanı altında Azərbaycan məhsulu kimi buraxılır. "Correcto" MMC Qafqazda ilk zavoddur ki, soyuq qəhvə istehsalı ilə məşğul olur. Lakin müəssisənin fəaliyyəti təkcə bununla yekunlaşmayacaq. Gələcəkdə burada soyuq çay və bir neçə çeşiddə meyvə şirələrinin istehsalı da nəzərdə tutulur.

## Şəmkirin bağlarından 32,4 min tondan çox xurma yığılmışdır

**Şəmkirdə 5 min hektardan çox meyvə və giləmeyvə bağı var. Həmin bağlardan fermerlər hər il xeyli qazanc götürürlər.**



Hazırda xurma yığımının qızğın vaxtıdır. Bu il havaların əlverişli keçməsi və aqrotexniki qulluq nəticəsində rayonun xurma bağlarında bol məhsul yetişmişdir. İndiyəcən 800 hektardan çox bar verən xurma bağlarının hər hektarından 150-170 sentner məhsul götürülmüşdür. Təsərrüfat sahibləri alıcı sarıdan da korluq çəkmirlər. Bağbanlar məhsulu elə yerindəcə satırlar. Məhsulun çox hissəsi Rusiyaya ixrac olunur. Son məlumata görə, 1842 hektar bağdan 32461,6 ton xurma yığılaraq yerli və xarici bazarlara göndərilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



## Qədim, cavan Masallı

**Masallı Azərbaycanın qədim yaşayış məskənlərindəndir. İnsan övladının burada nə vaxt yurd saldığı o qədər qədimlərə gedib çıxır ki, tarix elmi onun qarşısında aciz qalır.**

Masallının qədimliyini sübut edən tarixi abidələr, nəsildən-nəslə ötürülən xalq yaradıcılığı nümunələri də fikrimizi təsdiq edir. Rayonun özünəməxsus xalq sənətkarlığı və folklor örnəkləri təkcə Masallının deyil, bütün cənub bölgəsinin maddi-mənəvi sərvətidir. Bu yaxınlarda Astara rayonunda olduğum zaman buradakı "Şindan" hotelinin foyesində bölgənin milli adət-ənənələrini əks etdirən maddi-mədəniyyət nümunələri - özünəxas naxışları olan kilimlər, həsirlər, sandıqlar, dolçalar, müxtəlif növ saxsı və mis qablar, milli geyimi təmsil edən, nümayiş etdirən gəlin - cavan qadın eksponatı, habelə digər əşyalar diqqətimi çəkdi. Hotelin baş meneceri Akif Əliyev bu əşyaların rayona gələn turistlər tərəfindən maraqla qarşılandığını söylədi. Onların harada hazırlandığını soruşanda isə "qonşu Masallı rayonundan alıb gətirmişik" dedi.

Qədimlik bu gün Masallı şəhərinin görkəmində - Bakının İçərişəhəri kimi əyri-dolanbac küçələrində də özünü göstərir. İllər, qərinələr, əsrlər keçib, bu küçələrdə gediş-gəlişi, dövrümüzdə isə avtomobillərin hərəkətini yaxşılaşdırmaq üçün küçələrə dəfələrlə, bir-birinin üstündən qatbaqat asfalt döşənib. Nəticədə küçələr hündürləşib, hər iki tərəfdə tikilən evlər, bağ-bağatlar aşağıda qalıb. Payızda, qışda-yazda yağan qar-yağışın suyu axıb-getməyə yol tapa bilmədiyi üçün evlərin zirzəmisinə, həyətlərə dolur. Bu isə onsuz da nəmişlik olan şəhərin rütubətini artıraraq sakinlər üçün əməlli-başlı problemə çevrilir.

Gec də olsa, Masallı şəhərində evlərin zirzəmisinə axan, bəzən həyətlərdə dayanan yağış-qar suyunun qarşısının alınması üçün çarə tapılıb. Rayon rəhbərliyi və mütəxəssislər yığışaraq bu barədə müzakirələr keçirib, mövcud vəziyyətin aradan qaldırılması yollarını arayıb-axtarıb və tapıblar. Artıq bu sahədə tədbirlər həyata keçirilməyə başlanıb.

Məhəmməd Füzuli küçəsində indi qızğın iş gedir. Artıq küçəboyu borular qoyulmuş, piyada səkilərinə davamlı, esteteik baxımdan gözoxşayan kiçikölçülü kərpicəoxşar daşlar düzülmüş, müasir elektrik dirəkləri basdırılmış, yeraltı xətlər şəkilmişdir. Hazırda isə küçənin hər iki tərəfindən yığılan suların ortadan gedən kanalizasiya xəttinə axıdılması üçün iş görülür. Kanallar qazılaraq diametri 15-20 santimetr olan borular bu kanallara yerləşdirilir, yan küveytlərlə kanalizasiya xətti arasında əlaqə yaradılır. Bundan sonra sular həmin borular vasitəsilə kanalizasiya xəttinə axacaq.

İşin icrasını həyata keçirən Mənzil Kommunal İstehsalat Birliyinin rəisi Məhərrəm Əliyev dedi ki, boru xəttinin qoyulması başa çatdırıldıqdan sonra küçəni əvvəldən axıracan asfaltlaşdıracağıq.

Tikinti-quruculuq, abadlıq işləri şəhərin digər küçələrində, rayonun qəsəbə və kəndlərində də görülür. Bütün bunlar əhalini razı salır. Rayon Ağsaqqallar Şurasının sədri Əşrəf Niftiyev deyir ki, bu gün Azərbaycan öz tarixinin ən şərəfli dövrünü yaşayır: "Odlar yurdu heç vaxt belə güclü və qüdrətli olmamışdır. Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi Masallıda da böyük sevgi, məhəbbət və ehtiramla qeyd edilir. Heydər Əliyev Azərbaycan üçün bütün varlığını sərf etdi, bu yolda şam kimi əridi. Müstəqil Azərbaycanı indiki və gələcək nəsillər üçün miras qoydu. Deyirdi ki, mənim sizinlə başa çatdıra bilmədiyim işləri özüm qədər inandığım İlham Əliyevlə başa çatdıracaqsınız. Uzaqgörənliyin, müdrikliyin böyüklüyünə bir bax! Prezident İlham Əliyev Ulu Öndərin başladığı işləri uğurla davam etdirərək ölkəmizi daha da irəli apardı. 2020-ci ilin sentyabr ayında başlayan 44 günlük İkinci Qarabağ müharibəsində xalqımız, ordumuz Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında "dəmir yumruq" kimi birləşərək tariximizdə görünməyən misilsiz qələbə qazandı. Erməni işğalçıları Qarabağdan qovuldular. Bu il sentyabrın 19-20-də isə antiterror əməliyyatı keçirən ordumuz separatçıları son nəfərinə kimi Qarabağdan süpürüb atdı. Xankəndi, Xocalı, Ağdərə və digər yaşayış məntəqələrimizdə də Azərbaycan bayrağı ucaldıldı. Bu gün həm düşmən tapdağından azad edilmiş Şərqi Zəngəzur və Qarabağda, həm də ölkənin hər bir yerində, o cümlədən Masallıda böyük quruculuq, abadlıq işləri aparılır. Masallı aydan-aya, ildən-ilə daha abad olur. Küçələr, parklar, xiyabanlar yeni görkəm alır, qəsəbə və kənd yolları asfaltlanır. Şəhidlərin xatirəsini əbədiləşdirmək üçün bulaqlar tikilir, digər tədbirlər həyata keçirilir. Qazilər, şəhid ailələri daim diqqət mərkəzindədir".

Əşrəf Niftiyev tək deyil, Masallıda indi kimi dindirsən, belə xoş sözləri eşitmək mümkündür.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Lənkəranda plov...

**Lənkəran şəhərindəki Heydər Əliyev parkında "Azərsun Holding" MMC-nin təşkilatçılığı və Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə "Ən böyük qazan" adlı layihə çərçivəsində plov festivalı keçirilib.**

İcra strukturlarının, hüquq-mühafizə orqanlarının rəhbərləri və yerli ictimaiyyətin nümayəndələrinin iştirak etdikləri festival çərçivəsində tanınmış kulinar Əliheydər Məmmədovun hazırladığı müxtəlif növ plovlar təqdim olunub. Bundan başqa, müxtəlif animasiyalar - uzunboy adamlar, od püskürən və digər şoular göstərilib, tamaşaçılara hədiyyələr paylanılıb. Tədbirdə həmçinin populyar müğənnilərin çıxışları dinlənilib, Azərbaycan Dövlət Rəqs Ansamblının solistləri tərəfindən rəqs nömrələri nümayiş etdirilib.



Yerli sakinlərin zövqünü oxşayan festival yüksək ovqatla başa çatıb.

## ...Biləsuvarda hindtoyuğu festivalları maraqla qarşılanıb

**Rayon İcra Hakimiyyəti, "Azər Home Chef" şirkəti və "Turizmə və Milli Mətbəxin İnkişafına Dəstək" İctimai Birliyinin təşkilatçılığı ilə reallaşan festivalda hindtoyuğu ətindən hazırlanan müxtəlif yeməklər qonaqlara təqdim edilib. Rayonun Mərkəzi Parkında təşkil olunan möhtəşəm festivalda yerli və xarici qonaqlar iştirak ediblər.**

Festival boyu hindtoyuğundan hazırlanmış müxtəlif çeşidli təamlar qonaqlara təqdim olunub.

Festival iştirakçılarını salamlayan icra başçısı Faiq Qürbətov artıq ikinci ildir ki, sevilərək qarşılanan bu möhtəşəm tədbirin rayonda turizmin inkişafına maraq baxımından böyük əhəmiyyət daşıdığını, belə tədbirlərin milli mətbəximizin təbliğinə xidmət etdiyini deyib.

Festivala rəng qatan müxtəlif səpkili tədbirlər, idman oyunları keçirilib, yerli kənd məhsullarından ibarət sərgilər və rəsm əsərləri nümayiş olunub. Festivalboyu tanınmış mədəniyyət və incəsənət ustalarının ifasında təqdim olunan geniş konsert proqramı, səhnəciklər iştirakçıların marağına səbəb olub.




## Şamaxıda II Üzüm və Şərab Festivalı keçirilir

**Dünən Dövlət Turizm Agentliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Şamaxı şəhərinin Meysəri kəndində II Üzüm və Şərab Festivalının açılışı olub. AZƏRTAC xəbər verir ki, iki gün davam edəcək festivalın məqsədi yerli üzüm və şərab istehsalının təşviqi, şərab məhsullarının ixrac potensialının artırılması, Azərbaycanda üzümçülük və şərab istehsalı tarixini və bu sahədə görülən işləri geniş ictimaiyyətə çatdırmaqdır.**




Festivalda ölkəmizin müxtəlif bölgələrindən olan üzüm emalı və şərab istehsalı zavodları tərəfindən müxtəlif çeşidli şərablar nümayiş etdirilib, şərabçılıqla bağlı müxtəlif tədbirlər - şərab dequstasiyaları, yarmarkalar, yerli və beynəlxalq ekspertlərin iştirakı ilə somelye kursları təşkil olunub, qonaqlara "Azərbaycanda şərabçılıq və şərab istehsalı tarixi" haqqında məlumat xarakterli təqdimatlar nümayiş etdirilib.

Festival çərçivəsində yerli şərab istehsalı müəssisələrinin, Üzümçülük İnstitutu, Üzümçülük və Şərabçılıq Assosiasiyası, eləcə də turizm sənayesi nümayəndələrinin iştirakı ilə "Azərbaycanda şərab turizminin perspektivləri" mövzusunda "dəyirmi masa" keçirilib. "Dəyirmi masa"da "Ölkə imicinin formalaşması mexanizmində enoturizm" və "Şərabçılığın bir turizm məhsulu kimi inkişafı texnikası" mövzularında müzakirələr aparılıb.

Həmçinin festival çərçivəsində musiqili proqram və müxtəlif əyləncələr təşkil olunub. Festivalda uzun illərdən sonra ilk dəfə olaraq Qarabağda - Tuğda yetişdirilən Azərbaycanın ən qədim yerli texniki üzüm sortu hesab olunan "Xındoqnı" üzüm sortundan alınan yüksəkkeyfiyyətli qırmızı süfrə şərablarının təqdimatı da baş tutub.

Sərgi, əyləncə, piknik, suvenir, kulinariya kimi zonaları olan festival ərazisində ziyarətçilər yerli və xarici istehsalçıların şərab məhsullarını dequstasiya edə, həmçinin bəyəndikləri məhsulları ala bilirlər.

Qeyd edək ki, Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınan yerli üzüm sortlarının və şərab növlərinin mövcudluğu nəzərə alınaraq şərabçılıq turizminin beynəlxalq səviyyədə təbliğatı aparılır. Ölkəmizdə qərb, şimal və şimal-qərb turizm marşrutları üzrə, o cümlədən Xocavənd rayonunun Tuğ qəsəbəsində mövcud qədim şərabçılıq ənənələrinin yaşadılması və turizm məqsədli istifadəsi əsas inkişaf istiqamətləri sırasındadır.

Azərbaycan 20 ölkənin şərabçılıq marşrutunu özündə birləşdirən, Avropa Şurası və Avropa Mədəni Marşrutlar İnstitutu tərəfindən şərab irsi və şərabçılıq turizmini, eləcə də dayanıqlı turizm növlərini təşviq etmək məqsədilə yaradılmış "İter Vitis" maddi və qeyri-maddi şərabçılıq mədəni marşrutunun üzvüdür.

## Azərbaycana daha 10 zubr gətirilib

**IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-nin Azərbaycan nümayəndəliyi tərəfindən həyata keçirilən zubrların reintroduksiya layihəsi çərçivəsində noyabrın 24-də Azərbaycana Almaniyadan daha 10 zubr gətirilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yeni gətirilən zubrlar bir müddət volyer şəraitində saxlanacaq, adaptasiya dövrünü keçdikdən sonra Şahdağ Milli Parkının ərazisinə buraxılacaq.

2012-ci ilin sonlarından etibarən zubrların ölkəmizin vəhşi təbiətinə reintroduksiya edilməsi istiqamətində IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun (WWF) Azərbaycan ofisi tərəfindən intensiv iş aparılır. IDEA İctimai Birliyi ilə Şahdağ Milli Parkı arasında imzalanmış Əməkdaşlıq Sazişinə əsasən, nəsli kəsilmiş zubrların bərpası və onların ölkə təbiətinə reintroduksiya olunması, digər növ vəhşi heyvanların elmi məqsədlərlə artırılması üçün Şahdağ Milli Parkının İsmayıllı bölməsində 305 hektar sahə ayrılıb, ərazidə zubrların çoxaldılıb təbiətə buraxılması üçün kompleks inşa edilib.

2019-cu ilin may ayından etibarən Almaniya, Belçika, Niderlanddan Azərbaycana zubrlar gətirilir. Belə ki, 2019-cu ildə 12, 2020-ci ildə 5, 2021-ci ildə 9, 2022-ci ildə isə 10 baş zubr ölkə ərazisinə gətirilib. Təbii artımla birlikdə hazırda Şahdağ Milli Parkının ərazisində zubrların sayı 61-ə çatıb. Layihənin 2028-ci ilə qədər davam etdirilməsi və zubrların sayının 100 başa çatdırılması nəzərdə tutulur.

Ölkəmizə gətirilən zubrların daim nəzarətdə saxlanılması üçün boyunlarına GPS xaltalar taxılır. Zubrlar sözügedən ərazidə 2 il müddətində adaptasiya keçdikdən sonra hərəkət trayektoriyalarının izlənilməsi və sonrakı mərhələdə həyat tərzləri haqqında məlumatların toplanılması məqsədilə boyunlarına GPS cihazları quraşdırılmış boyunbağılarla vəhşi təbiətə buraxılır.








# Gənclik






**Azərbaycanın özü qədər əbədi**




# Heydər Əliyevin Azərbaycan dili sevgisi

**Dili yaşadan xalqdır, bu dildə danışanlardır. Elə xalqı da yaşadan onun dilidir. Bu baxımdan hər bir xalq öz milli mental dəyərlərinə, adət-ənənəsinə diqqət və qayğı ilə yanaşmalıdır.**

Dil mürəkkəb, eyni zamanda rəngarəng, çalarlı, zəngin işarələr sistemidir. Məşhur dilçi alim Humboldtun "Dil işarələr haqqında elmdir" fikri hər dövr üçün öz aktuallığını qoruyur. Sistemləşmiş, normaya salınmış doğma ana dilimiz də bu təkamül prosesindən keçmişdir. Azərbaycan dili öz melodik, avazlı, intonasiyanın işlənməsi baxımından zəngin dillər sırasındadır. Tarix boyu yadellilərin işğalı və istilası dilimizin müstəqil istifadəsinə mane olsa da, hər dəfə hürriyyətimizə qovuşduğumuzda ilk olaraq dilimizi dövlət dili elan etmişik. Şah İsmayıl Xətai Azərbaycan dilini ilk dəfə dövlət dili elan etmişdir. Şərqdə ilk cümhuriyyət yaradanda da dövlət dilimiz məhz Azərbaycan dili olmuşdur. Lakin bütün bunlar çox təəssüflər olsun ki, yarımçıq qalmışdır. Yalnız Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi ilə dilimizə, dilçiliyimizə münasibət dəyişmişdir.

Heydər Əliyevin dövlətə və dövlətçiliyə olan sevgisi, Azərbaycan dilinə, xalqına olan məhəbbəti onun həyatının ayrılmaz tərkib hissəsi idi. Böyük rəhbərin təşəbbüsü ilə 1995-ci ildə Konstitusiyamızın dil haqqında maddəsi ilə bağlı keçirilən müzakirələrdən sonra Azərbaycan dili dövlət dili kimi 21-ci maddədə öz əksini tapdı. 2001-ci ildə isə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzalandı. Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiqi, Azərbaycan əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi də Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndərin intellekti dil siyasətində özünü göstərmişdir. Azərbaycan dilinin təkmilləşməsində öz siyasi-ideoloji, uzaqgörən düşüncələri ilə misilsiz xidmətlər göstərən Ulu Öndər yorulmadan mücadilə aparmışdır. Bu dil siyasətinin məhvərində ilk olaraq vətənə, xalqa, dövlətə, doğma dilinə olan sevgi dayanırdı. Onun ən ümdə məqsədi müasir Azərbaycanı daha da qüdrətli görmək, dünya arenasında öz yerini tutmaq, gücünü və hürriyyətini isbat etmək idi.

Heydər Əliyevin dil siyasəti sadaladıqlarımızla qurtarmır. Qlobal dünyada özünəməxsus yer tutmaq üçün bütün sahələri inkişaf etdirmək, dünya dövlətləri ilə ünsiyyət qurmaq bu gün də aktualdır. Bunun üçün isə xarici dil bilmək vacibdir.

Azərbaycan gəncləri ilə görüşdə "Mən arzu edirəm ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun" deyən Heydər Əliyevin nə qədər uzaqgörən bir lider, bir siyasətçi, dövlət xadimi olduğunu görürük. Bu gün dünyanın ən nüfuzlu universitetlərində təhsil alan azərbaycanlı tələbələr, ölkə daxilində oxuyan, işləyən gənclər öz fəallıqları və fəaliyyətləri ilə Ulu Öndərin ideyalarına tapınmışlar.

44 günlük II Qarabağ savaşında sosial platformada ideoloji mübarizə aparanlar arasında məhz xarici dil bilikləri olanlar üstünlük təşkil edirdi. Ümummilli Liderin dil siyasəti öz töhfəsini verirdi. Öz dilimizdə düşündüyümüz, bildiyimiz həqiqətləri ingilis, rus dilində dünyaya çatdırırdıq.

Heydər Əliyev siyasi məktəbinin davamçısı İlham Əliyev də dövlət və gənclər siyasətini çox uğurla həyata keçirir. Dövlət hesabına xarici ölkələrdə təhsil almaq imkanı olan Azərbaycan gənci artıq Şekspiri ingilis, Puşkini rus, Höteni alman, Servantesi ispan, Rəşad Nuri Güntəkini türk, Aytmatovu qazax dilində oxuyur. Heydər Əliyevin nəsihəti və arzusu beləcə gerçəyə dönür.

***Günel HÜSEYNOVA,***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi***

**Gənclik ümidimizdir**

# "Vətən uğrunda vuruşmaq böyük xoşbəxtlikdir!"



**27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Vətən təəssübü çəkən oğullar könüllü olaraq torpaqlarımızın müdafiəsinə yollandılar. Belə oğullardan biri də Zaqatala rayonunun Gözbarax kəndində anadan olmuş Əliyev Musa Şirin oğlu idi. Musa kiçik yaşlarından idmanın cüdo növünə böyük maraq göstərib. Dəfələrlə gənclər arasında keçirilən yarışlarda iştirak edib, uğurlu nəticələr qazanıb. 2008-ci ildə yaşıdları ilə bərabər ordu sıralarına çağırılıb. Əsgəri borcunu "N" hərbi hissəsində yerinə yetirib. Xidmətinin 9 ayını Əfqanıstandakı sülhməramlı qüvvələrimizin sıralarında çəkib. Sülhməramlı əsgər kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Vətən qarşısındakı övladlıq borcunu layiqincə başa vurduqdan sonra 2009-cu ildə doğmalarının yanına qayıdıb.**

Torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi başlayanda Musa Əliyev də könüllü olaraq yurdumuzun müdafiəsinə atılıb. Onun xidmət etdiyi hərbi hissənin şəxsi heyətini Tərtər rayonunun Talış və Suqovuşan kəndləri uğrunda gedən döyüşlərə cəlb ediblər. Əməliyyatların ilk günlərindən cəsarəti və şücaəti ilə fərqlənən Musa komandirlərin verdiyi tapşırıqları qorxu bilmədən, mətanətlə yerinə yetirib. Suqovuşan və Talış kəndlərində erməni işğalçılarının qurduqları istehkamların yarılmasında böyük şücaət göstərib. Sərrast atəşlə neçə-neçə erməni qəsbkarını məhv edib. Müharibə Zəfərlə başa çatandan sonra Musa Əliyev 2020-ci ilin dekabr ayında ordu sıralarından qalib əsgər kimi tərxis olunub. 44 günlük Vətən müharibəsində göstərdiyi igidliyə görə Əliyev Musa Şirin oğlu Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Söhbət zamanı keçmiş döyüşçü Musa Əliyev dedi ki, Qarabağ uğrunda vuruşduqca sanki gücümüz daha da artırdı. Düşməni məğlub edib geri sıxışdıra-sıxışdıra uzun illərdən bəri işğalda qalmış torpaqlarımızı azad edirdik. Qoynunda doğulduğun Vətən uğrunda vuruşmaq çox böyük xoşbəxtlikdir. Tarixin bu anlarında Qarabağı azad etmək biz gənclərin üzərinə düşmüşdü. İrəli atdığımız hər addım bizi böyük zəfərə, qələbəyə yaxınlaşdırırdı. İlk vaxtlar ermənilər çox ciddi müqavimət göstərirdi. Sonrakı günlər isə qəsbkarlar güclü hücumlarımız qarşısında dayana bilmədilər. Getdikcə qüvvəsi tükənən, müqaviməti qırılan, şəxsi heyətini, hərbi texnikasını itirən düşmən silah-sursatını atıb qaçmağa başladı. Yağılar geri çəkildikcə biz Qarabağın içərilərinə doğru irəliləyirdik. İlk dəfəydi ki, ayağım Qarabağın torpaqlarına dəyirdi. Bu anlarda xoş hisslər keçirirdim. Belə şərəfli günlərdə Vətənə əsgər olmağımdan qürur duyurdum. Gərgin keçən döyüşlərdən sonra Suqovuşan və Talış kəndlərini, həmçinin bir neçə strateji əhəmiyyətli yüksəkliyi qəsbkarlardan azad etdik. Noyabrın 10-da erməni işğalçıları məğlub oldular. Düşmən üzərində Zəfər çaldığımıza, Qarabağı azad etdiyimizə görə gələcək nəsillərin üzünə həmişə alnıaçıq, başıuca baxacağıq. Çünki biz Vətən uğrunda, torpaqlarımızın azadlığı uğrunda vuruşmuşuq.

Sentyabrın 19-da Qarabağda separatçılara qarşı keçirilən antiterror tədbirləri nəticəsində Xankəndi, Xocalı, Xocavənd, Ağdərə və Əsgəran rayonları erməni işğalçılarından azad olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndidə üçrəngli bayrağımızı dalğalandırdı. Bu günlər ömrümüzün çox qürurverici günlərini yaşayırıq. Biz buna layiqik, çünki qalib xalqıq.

Vətən Musa Əliyev kimi cəsur oğullarla həmişə fəxr edib və qürur duyacaq. Çünki onlar yurdumuzun azadlığı uğrunda vuruşublar.

***V.MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***

**Xəbərlər**

# Rənglərdə yaşayan ömür

## Ulu Öndərin 100 illiyinə həsr olunan sərgi keçiriləcək

Beynəlxalq müsabiqələr laureatı, Rəssamlar İttifaqının üzvü, ölkəmizin gənc rəssamları sırasında öz dəst-xəti ilə seçilən Nərgiz Quliyeva təsviri sənət sevərləri qarşısına yeni sərgisi ilə gəlir.



Muzey Mərkəzindən bildirilib ki, dekabrın 1-5-də Mədəniyyət Nazirliyi və Milli Məclisin Mədəniyyət komitəsinin təşkilati dəstəyi ilə Muzey Mərkəzinin Sərgi Salonunda gerçəkləşəcək "Rənglərdə yaşayan ömür" fərdi sərgisi Nərgiz Quliyevanın Azərbaycanda nümayiş olunacaq sayca üçüncü ekspozisiyasıdır.

Ölkə daxilindəki aktiv fəaliyyəti ilə yanaşı, Nərgiz Quliyevanın dünya ölkələrindəki çoxsaylı layihələri də hər zaman diqqət cəlb edib. Parisin Luvr, Dubay Art Fair, İstanbulda "NishArt", Vyanada Azərbaycan Mədəniyyət Mərkəzi və "Alma Gallery", Macarıstanda Türksoy Həftəsi (Petöfinin 200-lik yubileyi), Mədəniyyət Nazirliyinin Şuşada keçirdiyi Art Camp, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Almaniyanın mötəbər salonlarında keçirilən sərgilərdə uğurlu iştirakı xüsusi diqqət çəkib.

Rəhbəri olduğu "Nargiz Art Studio"nun Macarıstan və Mərakeş səfirlikləri ilə birlikdə keçirdiyi müsabiqə-sərgilər də son dövrlərin önəmli yaradıcı hadisələri kimi yadda qalıb.

Fərdi sərgi bu ilin əsas əlamətdar tarixi kimi qeyd edilən Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunub. Milli Məclisin Mədəniyyət komitəsinin keçmiş sədri mərhum Qənirə Paşayevanın təşəbbüsü və ideyalarından ilhamlanaraq təşkil edilən sərgidə onun vətənpərvər ruhlu düşüncələrinin əks-sədası duyulmaqdadır.

Sərgidə Nərgiz Quliyevanın son illərdə Ulu Öndərin həyat və fəaliyyətindən ilhamlanaraq yaratdığı yeni əsərlərin təqdimatı ilə yanaşı, "Nargiz Art Studio"da təhsil alan yeniyetmə və gənc rəssamların 40-a yaxın əsərinin nümayişi də nəzərdə tutulub.

# "Gənc-Fest" festivalının açılış mərasimi olub

**Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Gənc-Fest" festivalının açılış mərasimi keçirilib.**



Açılış mərasimində əvvəlcə Dövlət himni səsləndirilib. Ardınca ölkənin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Daha sonra gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Azərbaycan Gənclər Fondunun icraçı direktoru vəzifəsini müvəqqəti icra edən Qədir Xəlilov çıxış edərək festival iştirakçılarını salamlayıb və uğurlar arzulayıblar. Festival Su İdmanı Sarayı ərazisində yerləşən Avropa Oyunları Parkında davam edəcək. İştirakçılar ətraf mühitin mühafizəsi ilə bağlı debatlarda iştirak ediblər. Həmçinin iştirakçılar üçün effektiv komanda işi, yanğın təhlükəsizliyi, ilkin tibbi yardım, ilkin hərbi hazırlıq, teatr sənəti, polimer gil və müasir incənət haqqında master-klaslar təşkil olunub.

**İstedadlar**

# "Mahnılarımı hərbçilərə minnətdarlıq hissləri ilə oxuyuram"

**Zəfər bayramı ərəfəsi idi. 2020-ci ildə Azərbaycan Ordusunun Qarabağda erməni işğalçıları üzərində qazandığı qələbənin şərəfinə Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 6 nömrəli filialının təşkil etdiyi "Zəfər sənindir, Azərbaycan!" adlı tədbirə dəvət olunmuşdum.**



Sevinc və fərəh dolu çıxışlar başa çatandan sonra meydan musiqiçilərə verildi. Zəfər bayramının ruhuna uyğun tərtib olunmuş səhnəyə çıxan musiqiçilər qəhrəmanlığı, vətənpərvərliyi və zəfəri tərənnüm edən mahnılar oxudular. Gənc müğənnilərdən birinin ifa etdiyi mahnı demək olar ki, bütün iştirakçıları sehirlədi. Onun səsi, ifa tərzi, səhnə mədəniyyəti hamıya xoş təsir bağışladı.

Tədbir başa çatandan sonra gənc müğənni ilə yaxından tanış oldum, onun ömür yolunu vərəqlədim. Öyrəndim ki, məlahətli səsi və ifa tərzi ilə tədbir iştirakçılarına xoş anlar yaşadan gənc müğənni Svetlana Quliyevadır. Onun valideynləri, doğmaları ermənilərin təzyiqi nəticəsində 1968-ci ildə Qərbi Azərbaycandan çıxıblar. Atası Müslüm Quliyev hərbçi olub. Uzun illər ordumuzun sıralarında xidmət edib.

Azərbaycanın dilbər guşəsi olan Şəki şəhərində dünyaya göz açan Svetlana hələ kiçik yaşlarından musiqiyə böyük həvəs göstərib. Tanrı ondan gözəlliyi ilə bərabər, məlahətli səsi də əsirgəməyib. Hələ orta məktəb illərində Svetlana keçirilən tədbirlərdə şeirlər deyib, mahnılar oxuyub. Bütün bunlar addım-addım onu musiqi dünyasına yaxınlaşdırıb. O günlərdə Svetlana arzulayırdı ki, gələcəkdə musiqinin sirlərinə dərindən yiyələnsin, tanınmış müğənni olsun, Azərbaycan musiqisini böyük səhnələrdə tərənnüm eləsin. Tamaşaçı alqışı, tamaşaçı sevgisi qazansın. Musiqini həyatının mənası bilən Svetlana ürəyində aşıb-daşan bu gözəl və sabahlara istiqamətlənmiş arzularına çatmaq üçün orta məktəbi bitirdikdən sonra sənədlərini Asəf Zeynallı adına Musiqi Kollecinə verib. İlk addımı onu uğura qovuşdurub. Biliyi, bacarığı Svetlananı ürəyində qövr edən arzularına çatdırıb. Kollecin vokal ixtisasına qəbul olub. Dosent Sevda Məmmədovadan vokal sənətinin sirlərini dərindən öyrənib. Uğurlara gedən çətin yollar onu qorxutmayıb. Yorulmadan daim öz üzərində çalışıb. Çalışqanlığı ona çox bilikləri öyrədib, musiqi dünyasının sirli qapılarını üzünə geniş açıb.

Çalışdıqca, öyrəndikcə Svetlananın musiqiyə olan sevgisi daha da artıb. Bu sevgi bir neçə ildən sonra onun əlindən tutub Azərbaycan Milli Konservatoriyasına gətirib. İmtahanlardan uğurla keçən Svetlana Quliyeva Konservatoriyaya qəbul olub. Hazırda Svetlana Xalq artisti Azər Zeynalovun rəhbərliyi altında milli vokal sənətinin sirlərini həvəslə mənimsəyir.

Gənc müğənni əlamətdar günlərdə hərbi hissə və birləşmələrdə zabit və əsgərlər qarşısında da çıxış edir. Könülləri tellləndirən, qəlbləri riqqətə gətirən səsi ilə qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən mahnılar oxuyur. Bənzərsiz ifaları ilə hərbçi tamaşaçılarının da sevgisini qazanır. Nümunəvi çıxışlarına görə S.Quliyeva dəfələrlə hərbi hissə komandirləri tərəfindən fəxri fərmanlarla və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

- Vətənimizin müdafiəçiləri olan hərbçilər qarşısında çıxış etməkdən qürur duyuram, - deyə Svetlana Quliyeva sözə başladı. - Çünki Azərbaycan Ordusunun zabit və əsgərləri 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlayan və 44 gün davam edən Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıq görstərdilər, xalqımıza qələbə sevinci yaşatdılar. Onların qarşısında çıxış edəndə xoş hisslər keçirirəm. Sanki dünyanı mənə verirlər. Başqa cür də ola bilməz. Mən mahnılarımı onlara minnətdalıq hissləri ilə oxuyuram.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə gənclərə böyük qayğı və diqqət göstərilir. Onların cəmiyyətdə aparıcı qüvvə olması və inkişafı üçün daim hərtərəfli şərait yaradılır. İnanırıq ki, bu qayğı və diqqətdən bəhrələnən, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Badamdar mədəniyyət evində mədəni-kütləvi tədbirlərin təşkilatçısı vəzifəsində çalışan gənc müğənni Svetlana Quliyeva həzin, məlahətli səsi ilə bundan sonra da böyük uğurlar qazanacaq. Bənzərsiz ifası ilə könülləri fəth edəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Abşeronda 8 hektar ərazidə 10 minə yaxın Eldar şamı və zeytun ağacları əkilib





Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Abşeron rayonunda təşkil olunan silsilə tədbirlər çərçivəsində ağacəkmə aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, aksiya Bakı-Şamaxı yolunun Abşeron rayonu ərazisində keçən hissəsində reallaşıb.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, rayonun hüquq-mühafizə orqanlarının, regional idarə və təşkilatları rəhbərləri, şəhid ailələri, müharibə veteranları, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Bir ay davam edən aksiya çərçivəsində 8 hektar ərazidə ölkəmizin iqlim şəraitinə uyğun 10 minə yaxın Eldar şamı və zeytun kimi həmişəyaşıl ağaclar əkilib. Əkilən hər bir ağacın küləkdən qorunması üçün bərkidilmə işləri həyata keçirilib, normal böyüməsi üçün mineral gübrələrdən və digər lazımi vasitələrdən istifadə edilib, yeni salınmış yaşıllıq zonasının daimi suvarılmasını təmin etmək məqsədilə xüsusi şəbəkə qurulub.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə yanvar ayından etibarən rayonun bütün kənd və qəsəbələrində mövsüm zamanı ağacəkmə aksiyaları keçirilib, yeni yaşıllıq sahələri salınıb, mövcud yaşıllıqlara isə daimi qulluq göstərilib.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


AZƏRBAYCAN
Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni, geosiyasi məkandır
SPECA
Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın Bakıda keçirilən Zirvə görüşündə iştirak edib
Prezident İlham Əliyevin çıxışı

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Belarusda "Azərbaycanın xalçaçılıq sənəti" adlı təqdimat keçirilib




Belarusda fəaliyyət göstərən səfirlər, diplomatlar və xarici nümayəndələrin həyat yoldaşlarından ibarət Minsk Beynəlxalq Qadınlar Klubu çərçivəsində Azərbaycan mədəniyyətinin təbliğ olunması məqsədilə "Azərbaycanın xalçaçılıq sənəti" adlı təqdimat keçirilib.

Azərbaycanın Belarusdakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə səfir Ülvi Baxşəliyevin həyat yoldaşı, Almaniya, Türkiyə, İran, Pakistan, Gürcüstan, Suriya, Fələstin, Qazaxıstan, Moldova səfirlərinin həyat yoldaşları, Gürcüstan səfirliyinin müşaviri, Xorvatiyanın Belarusdakı fəxri konsulunun həyat yoldaşı, eləcə də səfirliyin diplomatlarının həyat yoldaşları da iştirak ediblər.

Əvvəlcə səfirin həyat yoldaşı Könül Qəhrəmanova tədbiri açaraq Azərbaycanın zəngin mədəni irsində xalçaçılıq sənətinin mühüm yer tutduğunu, nəsildən-nəslə ötürülən bu xalq yaradıcılığı sənətinin 2010-cu ildə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na daxil edildiyini bildirib. Azərbaycanda xalçaçılığın inkişafına dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini vurğulayan K.Qəhrəmanova, "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin istifadəyə verilməsi, xalça və xalça məmulatlarının istehsalı, ixracı, ölkə daxilində və xaricdə satışının təşkili, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqi məqsədilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında məlumat verib. Həmçinin xalçaçılığın sənət və elm sahəsi kimi bir sıra təhsil müəssisələrində tədris edildiyini vurğulayıb.

Daha sonra səfirliyin üçüncü katibi Mina İmanova "Azərbaycan xalçaçılıq sənəti" adlı təqdimat edib. M.İmanova hazırlanma texnologiyasına görə fərqlənən xovlu və xovsuz xalçalar, eləcə də onun ayrı-ayrı növləri, Azərbaycanda tarixən formalaşmış 7 xalçaçılıq məktəbi, onları fərqləndirən xüsusiyyətlər haqqında ətraflı məlumat verərək hər bir məktəbə məxsus xalça nümunələrini nümayiş etdirib. Həmçinin Azərbaycanın dünya mədəni irsinə töhfəsi hesab olunan, hazırda bir sıra xarici ölkələrin muzey və fondlarında saxlanılan xalça nümunələri haqqında da tədbir iştirakçılarını məlumatlandırıb.

Qeyd edək ki, tədbir çərçivəsində Azərbaycanın turistik imkanlarını, mədəniyyətini və təbiətini, eləcə də "Xarıbülbül" festivalında Qarabağ atlarının iştirakı ilə Azərbaycan milli rəqs nümunələrini əks etdirən videoçarxlar da nümayiş olunub. Həm Azərbaycanın mədəniyyət paytaxtı, həm də musiqi beşiyi sayılan Şuşanın Bülbül, Üzeyir bəy Hacıbəyli, Xurşidbanu Natəvan kimi tanınmış bəstəkar, musiqiçi və yazıçıların vətəni olması vurğulanıb, ilk dəfə 1989-cu ildə keçirilən "Xarıbülbül" musiqi festivalına torpaqlarımızın erməni silahlı qüvvələri tərəfindən işğalından sonra uzun illər ara verildiyi təəssüflə qeyd olunub, Şuşanın 2020-ci ildə işğaldan azad edilməsi ilə tarixən şənliklərin və idman oyunlarının keçirildiyi "Cıdır" düzünün yenidən bu festivala evsahibliyi etdiyi iştirakçıların diqqətinə çatdırılıb.

Daha sonra caz-muğam sintezinin banisi, Azərbaycanın məşhur pianoçusu Vaqif Mustafazadənin əsərləri səsləndirilib.

# Dörd həftə ərzində Avropada koronavirusa yoluxma hallarının sayı 18, ölüm hallarının sayı isə 49 faiz azalıb




Oktyabrın 23-dən noyabrın 19-dək dünyada 519 mindən çox insan koronavirus infeksiyasına yoluxub, 2,4 mindən çox insan ölüb.

Ümumilikdə dünyada yoluxma hallarının sayı ötən dörd həftə ilə müqayisədə 13 faiz, ölüm hallarının sayı isə 72 faiz azalıb. Eyni zamanda Qərbi-Sakit Okean regionunda yoluxma hallarının sayının 14 faiz artması qeydə alınıb, Afrikada və Şərqi Aralıq Dənizində ölüm hallarının sayı müvafiq olaraq 167 faiz və 12 faiz artıb. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) informasiya bülletenində deyilir.

ÜST-nin məlumatına görə, dünyada dörd həftə ərzində 519 399 yoluxma halı və 2 456 ölüm halı aşkar olunub.

ÜST-nin məlumatları regionlarda yoluxma və ölüm halları ilə bağlı vəziyyətin müxtəlifliyindən xəbər verir. Qərbi-Sakit okean regionunda COVID-19-un yeni hallarının sayı dörd həftə ərzində 14 faiz artıb, ölüm hallarının sayı isə 38 faiz azalıb. Avropada yoluxma hallarının sayının 18 faiz, ölüm hallarının sayı isə 49 faiz azalması qeydə alınıb. Afrikada yoluxma hallarının sayının 14 faiz daha az olması qeydə alınıb, lakin ölüm hallarının sayı 167 faiz artıb. Şərqi Aralıq Dənizində yoluxma hallarının sayının 19 faiz daha az olması qeydə alınıb, ölüm hallarının sayı isə 12 faiz artıb.

Dörd həftə ərzində ən çox - 121 482 yoluxma halı Rusiyada aşkar olunub. Daha sonra İtaliya (104 165), Sinqapur (65 021), Avstraliya (34 635) və Polşa (21 876) yer alıblar. İtaliyada ən çox - 597 ölüm halı qeydə alınıb. Ondan sonra İsveç (372), Rusiya (250), İran (158) və Çexiya (112) qərarlaşıb.

# Gələn il Şuşada "ASAN xidmət" fəaliyyətə başlayacaq

Şuşa şəhərində "ASAN xidmət" mərkəzinin yaradılması ilə bağlı işlərə başlanılıb. Gələn il orada artıq "ASAN xidmət" fəaliyyətə başlayacaq.



AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib.

Azad edilmiş ərazilərdə ilk "ASAN xidmət" mərkəzi Zəngilanın Ağalı kəndində fəaliyyət göstərir. Azad edilmiş digər ərazilərdə də "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti nəzərdə tutulur. Hazırda həmin ərazilərimizdə ciddi tikinti-quruculuq işləri gedir. Tikinti-quruculuq işlərinin müəyyən mərhələsindən sonra mərkəzlərin mərhələli şəkildə açılması nəzərdə tutulur".

# Arif Məlikovun 90 illik yubileyi təntənəli şəkildə qeyd olunub

Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) dünyaşöhrətli bəstəkar Arif Məlikovun 90 illik yubileyinə həsr olunmuş konsert və sərgi keçirilib.

Akademiyadan bildirilib ki, tədbirdə çıxış edən sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas Aytən İbrahimova görkəmli bəstəkarın çoxşaxəli yaradıcılığından bəhs edib, onunla bağlı xoş xatirələrini bölüşüb.

Təntənəli konsert gecəsində BMA-nın "İxtisas fortepiano" kafedrasının baş müəllimi Zərif Kərimova (piano) və istedadlı musiqiçilər Nərgiz Əliyeva (fleyta), Ülviyyə Kazımova (piano), Renata Abubəkirovanın (violin) parlaq ifalarının fonunda qiraətçi Hüseynağa Aslanov tərəfindən Nazim Hikmətin şeirləri oxunub.

Konsert proqramında Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletindən violin üçün monoloq, "Rəqs", "Noktürn", "İki qəlbin dastanı" baletindən "Komdenin arzuları", fleyta və orkestr üçün "Konsertino", fortepiano pyesləri - Üç vals, "Zarafat", "Noktürn", "Təzadlar", "İki qəlbin dastanı" baletindən "Qızların rəqsi" əsərləri dinləyicilərə təqdim olunub.



Sərgidə isə rəssamlar - Könül Hüseynzadə, Şəfiqə Yusupova, Turan Ataşova, Kristina Sultanovanın rəngarəng rəsm əsərləri nümayiş etdirilib. Təqdim olunan rəsm əsərlərinin bir qismi Arif Məlikovun yaradıcılığına, bəstələdiyi əsərlərə həsr olunub.

Rəssam Şəfiqə Yusupova sərgidə həmçinin görkəmli bəstəkarın portreti olan "Ümidli baxışlar" adlı əsərini təqdim edib.

Xatırladaq ki, dünyaşöhrətli bəstəkar Arif Məlikov 2019-cu il may ayının 9-da ömrünün 86-cı ilində vəfat edib.

# Hava əsasən yağmursuz keçəcək

Azərbaycanda noyabrın 26-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-14°, gündüz 16-21° isti olacaq. Atmosfer təzyiqi 752 millimetr civə sütunundan 749 millimetr civə sütununa enəcək. Nisbi rütubət 50-60 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 11-16° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 9-14° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 8-13° isti, bəzi yerlərdə 16° isti olacaq.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 17-22° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 15-20° isti, dağlarda gecə 1-6°, gündüz 12-17° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-9°, gündüz 18-23° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 4-9°, gündüz 17-22° isti, dağlarda gecə 5-9°, gündüz 17-22° isti olacaq.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5328**
**Sifariş 3054**

**Qiyməti 40 qəpik**